Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 140 (8163) ÇƏRŞƏNBƏ AXŞAMI, 2 iyul 2019-cu il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az



## Azərbaycan ilə UNESKO arasında əməkdaşlıq uğurla inkişaf edir



İyunun 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev UNESKO-nun Baş direktoru xanım Odre Azulenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə UNESKO arasında əməkdaşlığın uğurla inkişaf etdiyi bildirildi, UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda keçirilməsinin əhəmiyyətinə toxunuldu, dünyada bu tədbirə böyük marağın olduğu qeyd edildi.

UNESKO-nun Baş direktoru xanım Odre Azule Azərbaycanın mədəniyyətlərarası dialoqa verdiyi töhfəni yüksək qiymətləndirdi və ölkəmizdə mədəni və tarixi irsin qorunması və təbliği istiqamətində görülən işlərin əhəmiyyətini qeyd etdi. Xanım Odre Azule Azərbaycanın Elm Muzeyinin təsis edilməsi təşəbbüsünə UNESKO-nun dəstək verdiyini bildirdi.

Mədəniyyətlərarası dialoqa toxunan dövlət başçısı "Bakı Prosesi"nin artıq böyük qlobal platformaya çevrildiyini və müxtəlif beynəlxalq təşkilatlar tərəfindən dəstəkləndiyini dedi. Prezident İlham Əliyev bildirdi ki, ölkəmizdə mədəni və təbii irsin qorunması gündəlikdə duran ən önəmli məsələlərdən biridir.

Söhbət zamanı Azərbaycan ilə UNESKO arasında elm və təhsil sahələrində əməkdaşlığın inkişafından məmnunluq ifadə edildi, bu sahədə UNESKO-nun xətti ilə həyata keçirilən layihələrin önəmi vurğulandı.

## Mədəni, tarixi və dini irsin qorunması Azərbaycanın dövlət siyasətinin əsas prioritetlərindən biridir





İyunun 30-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Azərbaycanda səfərdə olan UNESKO-nun Baş direktoru xanım Odre Azule ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva UNESKO-nun Ümumdünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyasında iştirak etmək üçün ölkəmizə gəldiyinə görə UNESKO-nun Baş direktoru Odre Azuleyə minnətdarlığını bildirdi. Təşkilatın Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda keçirilməsinin əhəmiyyətini vurğulayan UNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Odre Azulenin həmin tədbirə diqqətinin bu sessiyanın uğurla keçəcəyinə mühüm töhfə verəcəyinə əminliyini ifadə etdi. Mehriban Əliyeva Azərbaycan ilə UNESKO arasında əməkdaşlığın bir çox sahələrdə - mədəniyyət, elm, təhsil və digər istiqamətlərdə çox uğurla inkişaf etdiyini məmnunluqla vurğuladı. "Bütün bu illərdə birgə keçirilən toplantılarda, böyük beynəlxalq tədbirlərdə UNESKO ailəsinin üzvü olmaq mənim üçün çox xoşdur, böyük şərəfdir" deyən Mehriban Əliyeva bu il əməkdaşlığımızın 27-ci ildönümünün qeyd edildiyini bildirdi, dünya mədəniyyət irsinin qorunmasında gələcəkdə də çox uğurlu əməkdaşlıq quracağımıza əminliyini ifadə etdi. UNESKO-nun xoşməramlı səfiri onu da bildirdi ki, ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra mədəni, tarixi və dini irsin qorunması Azərbaycanın dövlət siyasətinin əsas prioritetlərindən birinə çevrilib və son illərdə Azərbaycanda UNESKO-nun tərəfdaşlığı ilə bir sıra möhtəşəm beynəlxalq forumlar, tədbirlər uğurla təşkil edilib. UNESKO-nun Baş direktorunun ölkəmizə səfərinin uğurlu keçəcəyinə əminliyini ifadə edən Mehriban Əliyeva ümidvar olduğunu bildirdi ki, bu səfər çərçivəsində Odre Azule Azərbaycanla, paytaxtımızla daha yaxından tanış olacaq və xalqımızın qonaqpərvərliyini hiss edəcək.

UNESKO-nun Baş direktoru Odre Azule Parisdə təşkilatın baş qərargahında Mehriban Əliyeva ilə görüşünü xatırladı və UNESKO üçün ən mühüm tədbir olan Ümumdünya İrs Komitəsinin növbəti sessiyasının üzv dövlətlər arasında məhz Azərbaycanda keçirilməsindən məmnunluğunu bildirdi. UNESKO-nun Baş direktoru növbəti günlərdə bütün ölkələrin nümayəndələrinin Bakıda bir araya gələrək dünya irsinin qorunması üçün görülməsi vacib olan tədbirləri müzakirə edəcəklərini vurğuladı. Odre Azule UNESKO üçün mühüm əhəmiyyət kəsb edən və 2500-ə yaxın iştirakçının qatılacağı bu sessiyanın Azərbaycanda keçirilməsinə görə təşəkkürünü bildirdi.

Sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və UNESKO-nun Baş direktoru Odre Azule birgə nahar etdilər.

## Ali Baş Komandan İlham Əliyevin əmri ilə Azərbaycan Ordusu işğal altındakı torpaqların azad edilməsi uğrunda döyüşə hər an hazırdır



İyulun 1-də Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin N saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva iştirak edib.

"Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Prezident İlham Əliyevin 2019-cu il 3 iyun tarixli sərəncamına uyğun olaraq Dövlət Təhlükəsizliyi Xidmətinin N saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması mərasimi keçirilib.

*Ardı 2-ci səh.*



## Vətənə və xalqa layiqli xidmətin 101 illik şərəf salnaməsi



Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan iqtisadi-sosial inkişaf modeli ilə yanaşı, həm də təhlükəsizliyin və sabitliyin etibarlı təminatı baxımından dünyada ən mükəmməl nümunələrdən birini yaradıb. Beynəlxalq terrorizmin və transmilli cinayətkarlığın sərhəd tanımadığı, kriminogen durumun qlobal miqyasda kəskinləşdiyi müasir dövrdə ölkəmiz Prezidentin təbirincə desək, sabitlik adasına çevrilib. Bu nailiyyətin əldə olunmasında şübhəsiz ki, daxili işlər orqanlarının da əzmkar fəaliyyəti var.

101-ci ildönümünü qeyd edən Azərbaycan polisi ictimai asayişin qorunmasında, müstəqil dövlətimizə qarşı yönələn cinayətkar qəsdlərin qarşısının alınmasında müstəsna xidmətlər göstərir. Torpaqlarımızın müdafiəsi, cinayətkarlığın səviyyəsinin azalması, silahlı quldur dəstələrinin zərərsizləşdirilməsi, mütəşəkkil cinayətkarlığa qarşı effektiv mübarizənin təşkili və digər yönümlərdə şərəflə çalışmış daxili işlər orqanlarının şəxsi heyəti qarşıya qoyulmuş vəzifələri də layiqincə həyata keçirir.

Xaosdan qurtuluşa keçidin bütün keşməkeşli, ziddiyyətli məqamları, ən əsası isə dövlətçilik təəssübü, mübarizliyi və fədakarlığı milli polisimizin fəaliyyət salnaməsini təşkil edir. Bu gün ictimai sabitliyin təminatına, kriminogen duruma nəzarətə görə Azərbaycanın dünyada ən yaxşı nəticələrə sahib olması faktı da heç şübhəsiz, bu tarixin şərəfli səhifələrindəndir.

Daxili işlər orqanlarının fəaliyyətinin hər bir dövrü zəngin və məsuliyyətli tarixi, fədakar xidməti, cinayətkarlığa qarşı səmərəli mübarizəni, vətən və xalq qarşısında vəzifə öhdəliklərinin layiqincə doğrulmasını real əks etdirir.

*Ardı 4-cü səh.*

MİNSK 2019 2nd EUROPEAN GAMES

## II Avropa Oyunları

## "Minsk-2019": 5 qızıl, 10 gümüş, 13 bürünc medal

### II Avropa Oyunları Azərbaycan idmançılarının növbəti zəfər meydanı oldu



Belarusun paytaxtı Minskdə təşkil olunan II Avropa Oyunlarına yekun vuruldu. Bir-birindən maraqlı idman yarışlarının şahidi olduq. Qitənin 50 ölkəsindən 4 mindən çox atletin qatıldığı bu möhtəşəm bayramda ədalətli idman mübarizəsi nəticəsində ən güclülər qalib gəldi.

9 gün ərzində 15 idman növü üzrə 200 dəst medal uğrunda təşkil olunan yarışlarda Azərbaycan 82 atletlə təmsil olunmuşdu. Komandamızın II Avropa Oyunlarında layiqli nəticə əldə etmək imkanı kifayət qədər yüksək, xüsusilə güləşçilərə, cüdoçulara, karateçilərə ümid böyük idi.

Sevindirici haldır ki, dövlətin idmançılara göstərdiyi daimi diqqət və qayğı növbəti dəfə özünü "Minsk-2019"da da doğrultdu. Belə ki, Azərbaycan 5-i qızıl, 10-u gümüş, 13-ü bürünc olmaqla 28 medal qazanaraq 50 ölkə arasında ilk onluqda yer tutdu.

### İlk medal gimnastlardan gəldi

Ölkəmizə ilk medalları (2 gümüş, 1 bürünc) akrobatika gimnastlarımız qazandırdılar. Dinamik hərəkətlər üzrə qarışıq cütlüklərin yarışında 28,830 xal toplayan Ruhidil Qurbanlı və Abdulla Əl-Məşayxi gümüş medala sahib olublar. Balans hərəkətləri üzrə qarışıq cütlüklərin yarışında isə Ruhidil Qurbanlı-Abdulla Əl-Məşayxi cütlüyü 28,160 xalla bürünc medala layiq görülüb.

Bir gün sonra isə akrobatika gimnastlarımız II Avropa Oyunlarında üçüncü medalı qazanıblar. Akrobatika gimnastikası yarışında təmsilçilərimiz Ruhidil Qurbanlı-Abdulla Əl-Məşayxi cütlüyü qarışıq hərəkətlər üzrə qarışıq komandaların yarışında 29,540 xal toplayaraq oyunların gümüş medalına sahib olub.

*Ardı 7-ci səh.*

## Dünyada siyasi və iqtisadi vəziyyət pisləşib

### G20 sammiti bu faktı təsdiqləməklə kifayətləndi

Ötən ayın son iki günündə dünyanın iqtisadi cəhətdən ən çox inkişaf etmiş ölkələrinin (G20) Yaponiyanın Osaka şəhərində keçirilmiş növbəti zirvə görüşünün yekunları hələ də beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir.

Belə sammitlər təkcə ümumi masa arxasında iclaslardan ibarət olmur, diqqəti daha çox dünya liderlərinin çoxsaylı ikitərəfli görüşləri, onların mətbuat konfranslarında beynəlxalq məsələlərə münasibətdə səsləndirdikləri fikirlərə cəlb edir.

Sammitin yekun bəyannaməsində liderlər dünyada siyasi və iqtisadi vəziyyətin pisləşməsindən, xüsusilə ticarət münaqişələrinin sayının artmasından və geosiyasi gərginliyin güclənməsindən təəssüfləndiklərini ifadə etmişlər. Bununla belə, tədbirin ev sahibi - Yaponiyanın Baş naziri Sindzo Abe görüşün yekunlarından söz açarkən qeyd etmişdir ki, G20-də ən müxtəlif fikirlər özünü göstərir, amma mühümü odur ki, "biz bir çox problemlərə münasibətdə ümumi yanaşmalar işləyib hazırlaya bildik, ziddiyyətləri qabartmadıq, diqqəti təmas nöqtələrinə yönəltdik". Baş nazir buna misal kimi Dünya Ticarət Təşkilatında (DTT) islahatın keçirilməsi məsələsində əldə olunmuş razılaşmanı göstərmişdir. O vurğulamışdır ki, dünya iqtisadi artım sürətinin aşağı düşməsi təhlükəsi ilə üz-üzədir: "G20 qlobal artımın lokomotivi olmalıdır. Biz tezliklə ayrı-seçkilik olmadan azad və dürüst ticarət qaydaları işləyib hazırlamağa tərəfdarıq. Bu, DTT-də islahat keçirmək üçün əsas olmalıdır".

Sammitin iştirakçıları yekun bəyannaməsində dünyanın enerji təhlükəsizliyinə nail olmaq üçün bütün marşrutlar üzrə enerji təchizatını maneəsiz təmin etməyə çağırmışlar. Bundan başqa, G20 kütləvi miqrasiya problemini nizamlamaq üçün birgə fəaliyyətin zəruriliyini vurğulamış və bir sıra digər mühüm problemlərə toxunmuşdur.

*Ardı 4-cü səh.*

## Qəbələ rayonunun Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. On min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirən Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 12,7 milyon (on iki milyon yeddi yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyul 2019-cu il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə, Azərbaycan Respublikasının Hökumətinə və xalqına ən səmimi salamlarımı və təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Sizə daimi xoşbəxtlik, möhkəm cansağlığı arzu edir və ümidvar olduğumu bildirirəm ki, ölkələrimiz arasındakı səmimi münasibətlər daha da möhkəmlənəcək.

Zati-aliləri, Sizə olan yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Culius Maada BİO,***
***Syerra-Leone Respublikasının Prezidenti***

# Ali Baş Komandan İlham Əliyevin əmri ilə Azərbaycan Ordusu işğal altındakı torpaqların azad edilməsi uğrunda döyüşə hər an hazırdır

*Əvvəli 1-ci səh.*









Mərasim əsgərlərin meydana gəlməsi ilə başladı.

Sonra döyüş bayrağı meydana gətirildi.

Xidməti vəzifələrin icrası zamanı fərqlənən əsgərlərə Fəxri Fərman, xatirə hədiyyələri və valideynlərinə təşəkkür məktubları təqdim olundu.

Bu günün Dövlət Təhlükəsizliyi Xidmətinin Əlahiddə Alayının şəxsi heyəti üçün əlamətdar gün olduğunu deyən Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-leytenant Əli Nağıyev həqiqi hərbi xidməti başa vuran əsgərləri və onların valideynlərini təbrik etdi, hərbi xidmət zamanı əsgərlərin hərbin sirlərinə dərindən yiyələndiklərini vurğuladı. Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrin bütün qoşun növlərində olduğu kimi, bu hərbi hissədə də xidmətin yüksək tələblər səviyyəsində təşkili üçün hərtərəfli şəraitin yaradıldığını bildirdi.

Dövlət Təhlükəsizliyi Xidmətinin ulu öndərin yadigarı olmaqla Azərbaycan dövlətçiliyinin qorunması üçün xüsusi önəm daşıdığını bildirən xidmət rəisi Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində əldə olunan nailiyyətlərdən danışdı. Qeyd etdi ki, Ali Baş Komandan İlham Əliyevin əmri ilə Azərbaycan Ordusu işğal altındakı torpaqların azad edilməsi uğrunda döyüşə hər an hazırdır.

Sonra Dövlət himni səsləndirildi.

Daha sonra şəxsi heyət təntənəli marşla tribunanın önündən keçdi.

Bu gün Azərbaycan Ordusunda xidmət edən hər bir gənc böyük şərəf hissi ilə hərbin sirlərinə yiyələnir. Vətəni müdafiə etmək kimi şərəfli və məsuliyyətli işin öhdəsindən layiqincə gələn əsgərlərimiz dünyanın ən qüdrətli ordularından birində xidmətləri ilə qürur duyurlar. Bu gün Azərbaycan Ordusu müasir silah-sursat təminatına və maddi-texniki bazasına görə dünyada lider yerlərdən birini tutur. Amma ən əsas məsələ müstəqil ölkəmizin ordusunda xidmət edən



hərbçilərdə olan Vətənə bağlılıq, Vətən sevgisi və ruh yüksəkliyidir. Üzərinə düşən vəzifələri lazımi səviyyədə icra etməyə qadir olan Azərbaycan əsgəri doğma torpağını, xalqını və dövlətini sonsuz məhəbbətlə sevir və Vətən uğrunda canından belə keçməyə hazırdır.

Sonra Birinci vitse-prezident Mehriban Əliyeva tədbirdə iştirak edən valideynlərlə görüşdü, onlarla söhbət etdi.

# Dünyanın mədəni irsinin qorunması Azərbaycan ilə UNESKO arasında əməkdaşlığın əsas istiqamətlərindəndir

## Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası işə başlayıb

## Birinci vitse-prezident Mehriban Əliyevanın çıxışı

İyunun 30-da Bakıda, Heydər Əliyev Mərkəzində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva mərasimdə iştirak edib. Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri milli-mənəvi dəyərlərin, tarixi-mədəni irsin qorunması və təbliği ilə yanaşı, beynəlxalq səviyyədə dünya irsinin müdafiəsi və mühafizəsinə dəstək verməkdir. Bu məqsədlə ölkəmiz müstəqilliyini bərpa etdiyi vaxtdan UNESKO ilə sıx əməkdaşlıq münasibətləri qurub və təşkilatın fəaliyyətinə öz töhfəsini verib. 2013-cü ildə UNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasına uğurla evsahibliyi edən Azərbaycanda eyni müvəffəqiyyətlə hər iki ildən bir UNESKO-nun rəsmi tərəfdaşlığı ilə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Ümumdünya İrs Komitəsinin 42-ci sessiyasında qəbul edilmiş qərara əsasən, Azərbaycan bu mötəbər qurumun növbəti sessiyasına evsahibliyi etmək hüququ əldə edib. Azərbaycan üçün mühüm əhəmiyyətə malik belə bir qərarın qəbul olunması ölkəmizin UNESKO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini göstərir. Prezident İlham Əliyev iyunun 30-dan iyulun 10-dək davam edəcək sessiyanın Bakıda layiqincə keçirilməsini təmin etmək məqsədilə müvafiq sərəncam imzalayıb. Bununla da UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda yüksək səviyyədə keçirilməsi təşkil olunub. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti **Mehriban Əliyeva** mərasimdə çıxış etdi.

- Hörmətli xanım Baş direktor.

Zati-aliləri.

Xanımlar və cənablar.

Əziz dostlar, hörmətli qonaqlar.

UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının açılış mərasimində bu gün sizinlə burada olmaqdan çox şadam. Sizin hamınızı Bakıda - Şərq ilə Qərbin, keçmişlə gələcəyin qovuşduğu şəhərdə, zəmanələrin və sivilizasiyaların nadir ahəngdarlığını göstərən mühitdə salamlamaqdan məmnunam. Bizim üçün bu cür mühüm toplantını qəbul etmək böyük şərəfdir və mən sessiyaya uğurlar arzulayıram.

Mən UNESKO-nun Baş direktoru xanım Odre Azuleyə xüsusi olaraq minnətdaram və əminəm ki, onun burada olması bu tədbirə xüsusi dəyər qatacaq. UNESKO-nun xoşməramlı səfiri kimi, mən bu gün burada bütün UNESKO ailəsinin üzvlərini salamlamaqdan çox şadam.

Bu ayın əvvəlində biz Azərbaycanın UNESKO-dakı üzvlüyünün 27-ci ildönümünü qeyd etdik. Bu illər ərzində biz mədəniyyət, təhsil, elm, kommunikasiya, gənclər və idman kimi bir çox sahələrdə uğurlu əməkdaşlıq qura bildik. Bu gün biz fəal təmsilçilik və verdiyimiz töhfələrlə UNESKO-nun proqramlarında iştirak edirik. Dünyanın mədəni irsinin qorunması Azərbaycan ilə UNESKO arasında əməkdaşlığın əsas istiqamətlərindən biridir. Eyni zamanda bizim tarixi, dini və memarlıq abidələrimizin qorunması, bərpası və saxlanması Azərbaycanın dövlət siyasətinin mərkəzində dayanır.

2001-ci ildə dövlət tərəfindən qorunan 6600-dən artıq mədəniyyət abidəsini əhatə edən Milli-Mədəni İrs Siyahısı qəbul edilmişdir. Son 5 il ərzində Azərbaycanda 40 tarixi abidə bərpa edilmişdir. Həmçinin qeyd etmək istərdim ki, Abşeron yarımadasında tapılmış tarixi abidələri və arxeoloji eksponatları özündə əks etdirən açıq səma altında "Qala" Arxeoloji-Etnoqrafik Muzey Kompleksi 2008-ci ildə açılmışdır. Bakıda, Ağcabədidə və Ağdamda muğam mərkəzlərinin tikintisi, məscidlərin, sinaqoqların və kilsələrin yenidən qurulması və inşası, muzeylərin bərpası və açılması - bütün bunlar



Azərbaycanın müxtəlif mədəni irsinin qorunması və zənginləşdirilməsi üçün dövlətimizin siyasətinin sadəcə bir neçə elementidir.

UNESKO ilə məhsuldar əməkdaşlığın nəticəsi olaraq Azərbaycanda iki sahə - İçərişəhər, o cümlədən Şirvanşahlar Sarayı və Qız qalası, Qobustan qayaüstü rəsmləri UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmişdir. Zəngin və qədim mədəniyyətimizin digər mühüm elementləri sırasında musiqi xəzinəmizin inciləri - muğam və aşıq sənəti, həmçinin bəşəriyyətin qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edilmişdir.

Azərbaycanın UNESKO-nun dəyərlərinə və ideallarına bağlılığı onun milli hüdudlarından kənarda da öz təzahürünü tapır. Son 10 il ərzində dünya mədəni irsin qorunması sahəsində apardığımız fəaliyyətin coğrafiyası geniş olmuşdur. Bununla belə, müharibələr və hərbi münaqişələr bəşəriyyətin mədəni irsinə hər zaman ciddi təhdid olmuşdur. Hərbi təcavüz nəticəsində, eləcə də beynəlxalq hüququ və BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini kobud şəkildə pozaraq Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin təxminən 20 faizini, o cümlədən Dağlıq Qarabağı və yeddi ətraf regionu bu gün də işğal altında saxlamaqda davam edir. Bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Yüzlərlə tarixi və memarlıq abidəsi, muzeylər, məscidlər və digər dini məbədlər dağıdılıb, yaxud ciddi dağıntıya məruz qalıb. Bu səbəbdən Azərbaycan mədəniyyət mülkiyyətinin qorunmasına aid müvafiq beynəlxalq konvensiyaların səmərəli icrasında çox maraqlıdır. Düşünürəm ki, bu sahədə görüləcək işlər hələ də çoxdur və UNESKO bu baxımdan mühüm rol oynamalıdır.

Əziz dostlar, mədəni irs bizi bəşəriyyətin şanlı tarixinə aid olduğumuzu birlikdə düşünməyə vadar edir. Biz qəti şəkildə inanırıq ki, sülh mədəniyyətinin toxumları yalnız dialoq və qarşılıqlı hörmət vasitəsilə cücərə bilər. Mən burada mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi üçün əsl qlobal platformaya çevrilmiş və Azərbaycanın başladığı "Bakı Prosesi"ni xatırlatmaq istəyirəm. 2008-ci ildə Bakıda ilk dəfə başlanmış beynəlxalq konfrans Avropa Şurasının üzv dövlətlərinin mədəniyyət nazirlərini ümumi narahatlıq doğuran məsələlər ətrafında dialoqa başlamaq üçün İslam Əməkdaşlıq Təşkilatının üzv dövlətlərindən olan həmkarları ilə bir masa arxasında topladı. Ötən ay biz "Bakı Prosesi" çərçivəsində V Dünya Mədəniyyətlərarası Dialoq Forumuna evsahibliyi etdik. Məmnunuq ki, UNESKO həmin mühüm təşəbbüsdə bizim əsas tərəfdaşımızdır. Xanım Baş direktor, verdiyiniz mühüm şəxsi dəstəyinizə görə sizə minnətdaram.

Bu toplantının işinə böyük uğurlar arzulayaraq, yekunda XII əsrin böyük Azərbaycan memarı və filosofu Memar Əcəminin sözlərinə istinad edərək demək istərdim: "Biz gedərik, ancaq qalar ruzigar, biz ölərik, əsər qalar yadigar".

Bir daha Azərbaycana xoş gəlmisiniz. Sağ olun.

* * *

UNESKO-nun Baş direktoru **Odre AZULE** çıxış edərək dedi:



- Hörmətli Birinci vitse-prezident Mehriban xanım Əliyeva.

Hörmətli UNESKO-nun İcraiyyə Şurasının sədri.

Xanımlar və cənablar.

Cənab nazirlər, hörmətli dostlar və həmkarlar.

Bu gün biz Bakı şəhərinə UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına toplaşmışıq. Bakı dünyəvi bir şəhərdir, zəngin tarixə, UNESKO-nun Ümumdünya Mədəni İrs Siyahısına daxil olan sahələrə malikdir. Bu gün axşam biz bütün dünyanın müxtəlif yerlərindən paytaxt şəhərinizə, buraya toplaşmışıq. Əslində bunun bir tarixçəsi var. Bu, bizi bir araya gətirən dəyərlərə, ümumi tariximizə, bölüşdüyümüz məqamlara bağlıdır. Tarix boyu bəşər övladı yaşayıb, yaratmışdır. Biz müxtəlif təkamül yolu ilə inkişaf edərək yeni üfüqlərə çıxmışıq.

Artıq biz yeni minillikdə, belə möhtəşəm sarayda - memar Zaha Hadidin dizaynına, onun üslubuna uyğun yaradılmış bir sarayda toplaşmışıq. Mən Azərbaycan Respublikasının rəhbərliyinə səmimi qonaqpərvərliyə və üzv dövlətlər üçün yaradılmış bu şəraitə və xüsusi mühitə görə təşəkkürümü bildirirəm. Çünki biz hər il xüsusi bir an yaşayırıq. Dünya miqyasında biz öz toplantımızı təşkil edərək burada müxtəlif namizədlikləri nəzərdən keçiririk. Biz UNESKO olaraq multilateralizm mövqeyindən çıxış edərək ümumi arzularımızı ifadə edirik. Burada həm Birləşmiş Ştatları, Çini, İranı, Rusiyanı, Burkina-Fasonu, həm də Böyük Britaniya və bütün digər dünya dövlətlərini narahat edən məsələləri müzakirə edirik. Bu, onu göstərir ki, məhz mədəni irsə gəldikdə bütün dünya ölkələri bu məsələləri birgə müzakirə edir. Bu gün biz müzakirə edəcəyimiz məsələlərin siyahısını hazırlamışıq. Bu, kifayət qədər böyük bir siyahıdır. Biz bu gün bir məqsədlə toplaşmışıq ki, universal dəyərə malik olan sahələr haqqında söhbət aparaq. Son zamanlar biz Rio muzeyində, həmçinin Parisdəki Notr-Dam kilsəsində dağıdıcı yanğınların şahid olduq. Bu hadisələr baş verdikdən sonra biz görürük ki, dünya mədəni irsi nə qədər həssas vəziyyətlərlə üzləşir. UNESKO ilk cərgələrdə gedərək beynəlxalq həmrəyliyin təzahürüdür. Biz bu gün sülh istəyirik, istəyirik sülh qurulsun.

Xanımlar və cənablar, hörmətli Ümumdünya İrs Komitəsinin üzvləri, bu gün siz konvensiyadan çıxış edərək öz fəaliyyətinizi aparacaqsınız. Sizin hamınıza rəsmi məktubumuzu ünvanlamışıq ki, biz burada bərabərlik nöqteyi-nəzərindən çıxış etməliyik. Biz əldə etdiyimiz nəticələri çoxaltmalıyıq. Biz tam zəmanət verməliyik ki, gələn 10 gün ərzində birgə işləyək, müzakirələr aparaq. Elə nailiyyətlər əldə edək ki, dünya mədəni irsi öz müxtəlifliyi ilə qorunsun, saxlanılsın. Bu baxımdan hər bir kəs - istər azlıq, istər çoxluq universal dəyərlərə öz töhfəsini verməlidir.

UNESKO bu yaxınlarda Mosul şəhərində saraylardan birində böyük bir toplantı keçirdi. Orada dağıntıya məruz qalmış, lakin tarixi əhəmiyyətə malik olan abidələrlə bağlı geniş müzakirələr aparıldı. Biz gördük ki, bunun çox böyük təsiri oldu. Biz, həmçinin bu ruhda vasitəçilik missiyası ilə Yaxın Şərqdə çıxış etmişik. Bunun sayəsində bizim İcraiyyə Şuramız, hər hansı bir komitəyə daxil olan qurum öz səylərini göstərir.

*Ardı 3-cü səh.*

# Dünyanın mədəni irsinin qorunması Azərbaycan ilə UNESKO arasında əməkdaşlığın əsas istiqamətlərindəndir

## Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası işə başlayıb



*Əvvəli 2-ci səh.*

Mən İsrail, İordaniya və Fələstin nümayəndə heyətlərinə təşəkkürümü bildirirəm ki, onlar dialoqu bərpa etmək üçün özlərində güc tapdılar. Qarşımızda bu gün elə layihələr var ki, o layihələr hamı tərəfindən bölüşülür və qəbul edilir. Hesab edirəm ki, atılan belə əhəmiyyətli addımlar bundan sonra da davam etdirilməlidir və onlar universal mədəni irsin qorunmasına yönəlməlidir.

Qeyd etdiyimiz mədəni irs haqqında, onun qorunması ilə bağlı Konvensiya bizim hamımıza nəinki fayda gətirir, o, həmçinin bizim bu sahədə apardığımız elmi araşdırmalara bir istiqamətdir. Bu gün bu sahədə qəbul edilən qərarlar ekspert biliklərinə, həmrəyliyə, dialoqa əsaslanır. Əminəm ki, siz yaxşı mühitdə konsensus əsasında müxtəlif məsələlərlə bağlı müsbət həll variantlarını tapa biləcəksiniz.













Mən istərdim ki, bizim fəaliyyətimizə inam olsun, bu fəaliyyət universal xarakter daşısın. Bildiyiniz kimi, öz uzun tarixinə, öz təbii və mədəni irsinin müxtəlifliyinə baxmayaraq, Afrika qitəsi yenə də zəif şəkildə təmsil olunur. İstərdik ki, onların mədəni irsi daha yaxşı şəkildə qorunsun və təmsil olunsun. Bu, bizim ümumi tarixdə öz izini qoyacaq. Beynəlxalq həmrəylik daha yüksək sürətlə formalaşdırılmalıdır. Məmnunluq hissi ilə deyə bilərəm ki, bu məqsədlər üçün dünya səviyyəsində dəstəyi formalaşdıra bildik.

Xanımlar və cənablar, biz üzərimizdə bu öhdəliyi hiss edirik. Bu, dünya mədəni irsinə aiddir. Əfqanıstanda, Yəməndə, Suriyada, İraqda və bir sıra digər yerlərdə misallar var. Qürur hissi ilə bildiririk ki, bizim aramızda həmrəylik qurulub. Bu, müxtəlifliyin qorunmasına yönəldilib. Dünya mədəni irsi, həmçinin hədəf kimi də seçilə bilər, qeyri-düzgün şəkildə idarəçiliyə məruz qala bilər. Mədəni və təbii irsin qorunması ilə bağlı Konvensiya ola bilsin ki, dünyada ən çox tanınan normativ hüquqi sənəddir. Normativ hüquqi sənəd olaraq o, bizim hamımızın üzərinə vəzifə və eyni məqsəd qoyur ki, biz yüzlərlə abidəni artıq məlum olan təcrübələr əsasında qorumalıyıq və mühafizə etməliyik.

Bu fürsətdən istifadə edərək mən dünya əhalisinə, xüsusən də gənclərə səslənirəm. Qeyd etmək istəyirəm ki, onlar bütün proseslərə qatılmalıdırlar. Nəinki bu işləri aparmalıdırlar, həmçinin bu sahədə təşviqat işlərində iştirak etməlidirlər, təhsillərini daha da artırmalıdırlar. Bununla bağlı bizdən konkret tədbirlərin görülməsi tələb olunur. Çünki tarix onu göstərib ki, biz bu sahədə dayanmadan işləməliyik.

Mən burada bir gənc qıza söz vermək istəyirəm. Onun doqquz yaşı var. Mən onu kürsüyə dəvət edirəm. O, sizinlə öz duyğularını bölüşmək, öz fikirlərini izah etmək istəyir. O, bir poema müəllifidir və istərdim ki, onu sizə təqdim etsin. Bu da universal dəyərə malik olan dünya mədəni irsinə aid yazıdır. Mən sözü gənc qıza vermək istəyirəm. Sizin hamınıza uğurlu iş arzulayıram.

**Doqquz yaşlı uşaq:** Hamınıza axşamınız xeyir olsun deyirəm. Çox sağ olun ki, mənim üçün belə bir fürsət yaratdınız. Əhmədabad mənim şəhərim, mənim irsimdir. Bu, yazdığım kitabın adıdır. O kitabda çox maraqlı fotoşəkillər də var. Mənim şəhərimə ithaf olunub. Şəhərimdə olan çox qədim, 600 illik tarixə malik mədəni abidələrin tarixçəsi burada məni həvəsləndirdi ki, bu kitabı yazım. Bundan irəli gələrək mən tarixçəmi 1411-ci illə başladım. Həmin vaxt şəhərimiz yaradıldı. Burada olan məkan Sultan Əhməd Şaha çox böyük təəssürat bağışladı. Beləliklə, o, bu möcüzəli məkanda yeni bir şəhəri yaratmaq qərarına gəldi. Mən kitabda öz poemamı əks etdirmişəm. İstərdim kitabımı UNESKO-nun Baş direktoruna hədiyyə olaraq təqdim edim. Altı yüz il öncə bu tarixçə başlayıb. Şəhərimdə möcüzə ağacı bitir. O, öz şan-şöhrətini qoruyub saxlaya bilib. Bu gün bir quş onun budaqlarında əyləşərək bizim canlı irsimizin mahnısını ifa edir.

Sağ olun.

* * *

Sonra UNESKO-nun İcraiyyə Şurasının sədri **Byonq-Hyun Li** və Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının sədri, Azərbaycanın Mədəniyyət naziri **Əbülfəs Qarayev** çıxış edərək sessiyada müzakirə olunacaq məsələlərin və qəbul ediləcək qərarların çox əhəmiyyətli olacağını bildirdilər.

Daha sonra Azərbaycan incəsənət ustalarının maraqlı konsert proqramı təqdim olundu.

# Azərbaycan və Özbəkistan arasında münasibətlər yüksək səviyyədədir

Azərbaycan və Özbəkistan arasında münasibətlər yüksək səviyyədədir. Ölkələrimiz arasında sıx dostluq əlaqələri var. İnanırıq ki, bu münasibətlər bundan sonra da davam edəcək.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın Baş Nazirinin müavini Əli Əhmədov Özbəkistanın Baş Nazirinin müavini Aziz Abduxakimov ilə görüşündə deyib. Azərbaycanın evsahibliyi etdiyi beynəlxalq tədbirlərə toxunan Əli Əhmədov ölkəmizin iqtisadi sahədə əldə etdiyi nailiyyətlərdən də danışıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edən Baş Nazirin müavini Özbəkistanın bu məsələdə Azərbaycanın yanında olmasından məmnunluğunu ifadə edib.



Aziz Abduxakimov da, öz növbəsində, ölkələrimiz arasındakı əlaqələrin inkişafından danışıb. O bildirib ki, Azərbaycan beynəlxalq tədbirlərə uğurla evsahibliyi edir. UNESKO-nun Ümumdünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyası buna bariz nümunədir.

# UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində istiqamətləndirici iclas keçirilib






İyunun 30-da Bakı Konqres Mərkəzində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində komitə üzvlərinin istiqamətləndirici iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, sessiyanın təşkilat komitəsinin sədri, Azərbaycanın Mədəniyyət naziri Əbülfəs Qarayev çıxış edərək qonaqları salamlayıb, komitənin iclaslarının və açılış mərasiminin keçiriləcəyi məkanlarla bağlı məlumat verib.

Nazir vurğulayıb ki, UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının açılış mərasiminin keçiriləcəyi Heydər Əliyev Mərkəzində Azərbaycanın mədəni zənginliyini nümayiş etdirən sərgi, həmçinin müxtəlif mövzularda təqdimatlar və mədəni proqram nümayiş olunacaq.

İclası UNESKO-nun Dünya İrs Mərkəzinin direktoru xanım Mextild Rossler davam etdirərək bildirib ki, 43-cü sessiya çərçivəsində Abidə Menecerlərinin Forumu və Gənc Peşəkarlar Forumu yüksək səviyyədə təşkil edilib. İyulun 1-də keçirilən sessiyalara hazırlıqla bağlı məlumat verən xanım Rossler diqqətə çatdırıb ki, sessiyaların və plenar iclasların keçiriləcəyi zallar iştirakçıların istifadəsinə tam hazırdır. O tövsiyə edib ki, təqdim olunacaq faylların nominasiyası prosesi ilə bağlı əlavə məlumatları təşkilat komitəsinə təqdim etsinlər. Həmçinin vurğulayıb ki, plenar sessiyalarla yanaşı, paralel olaraq panel və büro sessiyaları da keçiriləcək. Sessiyalara katiblik, məşvərət şurası və hüquq müşavirləri nəzarət edəcəklər. Sessiyaya hazırlıqla bağlı bütün məlumatlar komitənin veb-saytında əks olunub. Bütün sənədlər bu saytda öz əksini tapıb, hər kəs sessiyaya aid sənədi onlayn rejimdə işləyən bu internet resursundan əldə edə bilər. Bakı sessiyasında UNESKO-nun Dünya İrsi Siyahısına daxil edilmək üçün üzv dövlətlər tərəfindən təqdim olunmuş 36 namizəd fayl nəzərdən keçiriləcək. Namizədliyi irəli sürülmüş faylların 28-i mədəni, 6-sı təbiət, 2-si qarışıq (təbiət və mədəni) abidələr sırasına daxildir. Sessiyalarda ilk olaraq siyahı üzrə təbiət, daha sonra mədəni obyektlər üzrə nominasiyalar müzakirə ediləcək. Vurğulanıb ki, sessiya çərçivəsində 50-yə yaxın paralel tədbir və sərgilər keçiriləcək.

Daha sonra prosedur məsələlərlə bağlı görüləcək işlər diqqətə çatdırılıb. İstiqamətləndirici iclas iştirakçı dövlətlərin nümayəndələrinin fikir və təklifləri ilə davam edib.

Qeyd edək ki, Bakıda işə başlayan UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında dünyanın 180-dən artıq ölkəsindən 2500-dən çox nümayəndə iştirak edir.

# Azərbaycan UNESKO ilə əlaqələrin daha da inkişaf etdirilməsində maraqlıdır

Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov iyunun 30-da UNESKO-nun Bakıda keçirilən Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirakı çərçivəsində təşkilatın baş direktoru xanım Odre Azule ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, baş direktor Ümumdünya İrs Komitəsinin iclasının UNESKO-nun ən böyük tədbirlərindən olduğunu qeyd edərək, bu tədbirə bütün dünyadan nümayəndələrin qatıldığını söyləyib. O, komitənin 43-cü sessiyasına evsahibliyi etdiyi üçün Azərbaycan tərəfinə minnətdarlığını ifadə edib.

Tərəflər UNESKO ilə Azərbaycan arasında elm, təhsil, mədəniyyət, kommunikasiya, gender bərabərliyi və digər sahələr üzrə mövcud olan fəal və səmərəli əməkdaşlıq əlaqələri ətrafında fikir mübadiləsi aparıblar.

Azərbaycan-UNESKO münasibətlərinin inkişaf etdirilməsində və UNESKO dəyərlərinin dünyada təşviq edilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti xüsusi vurğulanıb.



Xanım Odre Azule UNESKO-nun sadiq və fəal üzvü qismində çıxış etdiyi üçün Azərbaycana təşəkkürünü bildirib və təşkilatın islahatlarının həyata keçirilməsi baxımından məhz öhdəliklərinə sadiq üzv ölkələrə ehtiyac duyulduğunu vurğulayıb.

Elmar Məmmədyarov UNESKO ilə əməkdaşlığın Azərbaycan üçün əhəmiyyət kəsb etdiyini və bu xeyirxah təşkilatla əlaqələrimizin daha da inkişaf etdirilməsində maraqlı olduğumuzu bildirib. Nazir Azərbaycanın zəngin irs nümunələrinin UNESKO siyahılarına daxil edilməsində maraqlı olduğunu qeyd edib. O, mədəni irsin qorunması mövzusuna həssas yanaşdığımızı bildirib və ölkəmizin Ermənistan tərəfindən işğal olunmuş ərazilərində mədəni, tarixi və dini irsimizi Ermənistan silahlı qüvvələrinin məqsədyönlü şəkildə dağıtdığını diqqətə çatdırıb.

Görüşdə dünya irsinin qorunması sahəsində UNESKO tərəfindən həyata keçirilən mühüm layihələr üzrə fikir mübadiləsi aparılıb.

# *Mextild ROSSLER:* “Azərbaycan mədəni sərvətlərinə, irs nümunələrinə diqqət və qayğı ilə yanaşır”

Bakıda işə başlayan UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında dünyanın 180-dən artıq ölkəsindən 2500-dən çox nümayəndə iştirak edir.

Bakı sessiyasında UNESKO-nun Dünya İrsi Siyahısına daxil edilmək üçün üzv dövlətlər tərəfindən təqdim olunmuş 36 namizəd fayl nəzərdən keçiriləcək. Namizədliyi irəli sürülmüş faylların 28-i mədəni, 6-sı təbiət, 2-si qarışıq (təbiət və mədəni) abidələr sırasına daxildir. Eyni zamanda Bakıda UNESKO-nun siyahısında olan və təhlükə ilə üzləşən 166 abidənin hazırkı vəziyyəti müzakirə ediləcək.

Bu sözləri AZƏRTAC-a müsahibəsində UNESKO-nun Dünya İrs Mərkəzinin direktoru xanım Mextild Rossler deyib.

Xanım M.Rossler tədbirin əhəmiyyətini vurğulayıb. Tədbir çərçivəsində təşkil edilən Abidə Menecerlərinin Forumu və Gənc Peşəkarlar Forumunun işini yüksək dəyərləndirən direktor təşkil edilən sessiyalarda maraqlı müzakirələrin şahidi olduğunu diqqətə çatdırıb. Bildirib ki, UNESKO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak etmək üçün Bakıya bu sahənin çoxsaylı mütəxəssisləri toplaşıb. Burada olduğumuz bir neçə gün ərzində biz təşkilati işlərin yüksək səviyyədə həyata keçirildiyinin şahidiyik. Eyni zamanda onu da qeyd etmək istərdim ki, Azərbaycan mədəni sərvətlərinə, irs nümunələrinə diqqət və qayğı ilə yanaşır.

Qobustan Milli Tarix-Bədii Qoruğunda olduğunu söyləyən Mextild Rossler buradakı nadir qayaüstü rəsmlərə heyranlıqla baxdığını və ərazinin açıq səma altında qoruq-muzey kimi böyük şöhrət qazandığını vurğulayıb.

UNESKO-nun Dünya İrs Mərkəzinin direktoru Mextild Rossler əmin olduğunu bildirib ki, on gündən sonra hər bir iştirakçı Bakıdan xoş təəssüratlarla ayrılacaq.

# Azərbaycanın daxili işlər orqanları - 101

*Əvvəli 1-ci səh.*







*Azərbaycan polisi hər cür ekstremal şəraitdə fədakarlığa hazır olduğunu daim sübut edir*

## Vətənə və xalqa layiqli xidmətin 101 illik şərəf salnaməsi







Necə ki polis bu gün öz tarixinin ən qüdrətli dövrünü yaşayan müstəqil dövlətimizin, xalqımızın, hər bir vətəndaşımızın əmin-amanlığının, asayişinin keşiyindədir, 101 il əvvəl də bu rəşadətli fəaliyyətini yürüdüb, sabah da bu ənənəsinə sadiq qalacaq.

Əlamətdar faktdır ki, cümhuriyyətin elanının elə səhərisi günü - mayın 29-da Azərbaycanın ilk Daxili İşlər Nazirliyini yaratmaq barədə qərar qəbul olundu. Bu sahəyə o qədər əlahiddə yanaşılırdı ki, Fətəli xan Xoyski həm Nazirlər Şurasının sədri, həm də Daxili İşlər naziri vəzifəsini yerinə yetirirdi. Milli hökumətin 24 iyun 1918-ci il tarixli 178 nömrəli qərarına əsasən, 1918-ci il iyulun 2-də Yelizavetpol (Gəncə) quberniyasında ilk milli polis orqanları yaradılaraq ştatları təsdiqləndi. Və beləliklə, Azərbaycan polisi çox çətin tarixi sınaqlar dövründə şərəfli missiyasının icrasına başladı.

Xalq Cümhuriyyətinin ömrü cəmi 23 ay çəksə də, o ayların ruhu, cəmiyyət qarşısında müəyyən edilmiş öhdəliklər Azərbaycan polisini tərk etmədi. Bu, bir əsrlik dövrün sovet dönəmində xalqa və dövlətə xidmətin milis, müstəqillik illərində isə polis adı altında yerinə yetirilməsi, əslində, yalnız adı dəyişdi. Missiyanın mahiyyəti, zabit mundirində daşınan dövlətçilik atributlarımıza sadiqlik, Azərbaycan amalı dəyişməz qaldı. Onlar bu amala, milli ideyalara, dəyərlərə, zabit şərəfinə nə qədər bağlı olduqlarını bir əsr ərzində daim sübuta yetirdilər.

Polis orqanlarının bir əsri ötən fəaliyyətinin ən şanlı, uğurlu və məsuliyyətli mərhələsi - 50 illik dövr Heydər Əliyevlə, onun bu gün də davam edən ideyaları ilə birbaşa bağlıdır. Azərbaycan polisinin fəaliyyətində köklü islahatların yarandığı ilk "qızıl dövr" Heydər Əliyevin ötən əsrin 70-80-ci illərdəki rəhbərliyi altında gerçəkləşdi. "Milis" adını daşıyan daxili işlər orqanlarının mənən saflaşdırılmasına, əməkdaşların vətənpərvərlik, milli-mənəvi dəyərlər əsasında peşəkarlaşdırılmasına və digər bu kimi mühüm addımlara məhz ümummilli liderimiz böyük uzaqgörənliklə nail oldu və bu strukturlarda milliləşmə prosesi böyük vüsətlə getdi.




Ötən əsrin 80-ci illərinin sonlarına, Azərbaycanın müstəqilliyinə doğru çətin və şərəfli yolda da daxili işlər orqanları yenə də xalqla birlikdə idi. Ermənistan Azərbaycan torpaqlarına qarşı işğalçı hərəkətlərinə etiraz olaraq meydanlara axışan və bu axınla tədricən böyük bir xalq hərəkatı formalaşdıran insanlarımızın vəhdətində, cəsarətində əslində, qəlbi hərəkatla döyünən asayiş keşikçilərimizin böyük payı vardı. Vətənpərvər milislər xalqı, onun mübarizə əzmini qorumağa, bu ümumxalq qətiyyətinə dəstək verməyə, onun öz milli hədəflərinə çatmasına hər vəchlə kömək göstərməyə can atırdılar.

Vətən savaşında 1695 əməkdaş və hərbi qulluqçu şəhidlik zirvəsinə ucaldı, 1710 nəfər isə yaralandı. Göstərdikləri şücaət və igidliklərə görə 67 nəfər "Milli Qəhrəman" adına, 1143 nəfər orden və medallara layiq görüldü. Bu rəqəmlər yalnız statistika deyil, əslində, 101 yaşlı polisimizin qürur, şərəf salnaməsinin ən parlaq səhifələrindən biridir.

1993-cü ilin 15 iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev cəmiyyətin hava və su kimi ehtiyac duyduğu sabitliyi bərqərar etmək üçün sınaqlardan alnıaçıq çıxan, müstəqilliyin dəyərini dərk edən daxili işlər orqanlarına arxalandı. Azərbaycan polisi xalqa layiqli xidməti ilə dövlət quruculuğu prosesində öz möhkəm, sarsılmaz, şərəfli yerini tutdu. Onların uzun illərdən bəri topladıqları zəngin səriştə, eləcə də müstəqilliyin ilk illərində formalaşmış təcrübə, əvvəlki iqtidarların səhvlərindən, yanlışlıqlarından çıxarılan dərslər Heydər Əliyevin həyata keçirdiyi hüquqi quruculuq prosesində, respublikada kriminogen durumun nəzarət altına alınmasında, asayişin, sabitliyin bərpası və qorunmasında çox mühüm rol oynadı.

1994-cü ilin 29 aprel günü keçirilmiş müşavirə Azərbaycan daxili işlər orqanlarının həyatında yeni bir mərhələnin əsasını qoydu. Heydər Əliyevin həmin müşavirədəki tarixi çıxışında müəyyən etdiyi vəzifələr ulu öndərin şəxsində zamanın, yeni dövrün özünün Azərbaycan polisinə ünvanlanmış çağırışı idi. Dövlət başçısının gözləntiləri çox qısa müddətdə özünü doğrultdu. Polis orqanlarında ciddi dəyişikliklər baş verdi, ən əsası, bu struktur yuxarıdan aşağıya doğru daxilən saflaşdırıldı, vəzifə andına, məsuliyyətinə sədaqət əsas amilə çevrildi. Respublikada fövqəladə vəziyyət ləğv olundu, bir müddət əvvələ qədər axşamlar tamamilə boş qalan Bakı küçələri öz qələbəlik məcrasına qayıtdı. Həyatı öz axarına düşmüş insanlar ictimai asayişi, bazar iqtisadiyyatı yoluna yenicə qədəm qoyan ölkədəki inkişaf mühitini, qanunun aliliyini qorumaqdan ötrü daxili işlər orqanlarının göstərdiyi qətiyyəti, fədakarlığı gördükcə cəmiyyətdə polisin nüfuzu yenidən yüksəldi, onlara inam gücləndi, şəxsi heyətin peşəkarlığı artdı, cinayətkarlar bu güc qarşısında geri çəkilməyə başladılar.

1992-ci illə müqayisədə 2002-ci ildə ölkədə qeydə alınan cinayətlərin açılması 67 faizdən 94,8 faizə yüksəldi, ümumi cinayətlərin sayı 30,9 faiz, o cümlədən qəsdən adamöldürmələr 2,7 dəfə, quldurluq və soyğunçuluqlar 3,7 dəfə, oğurluqlar 5,2 dəfə, odlu silahın tətbiqi ilə törədilən cinayətlər 7,2 dəfə, nəqliyyat vasitələrinin oğurluğu 25 dəfə, habelə bağlı qalmış cinayətlər 13 dəfə azaldı. 10 il ərzində daxili işlər orqanları tərəfindən əllərdə qanunsuz saxlanılan 30 mindən artıq silah yığıldı. Hər il orta hesabla qrup halında fəaliyyət göstərən 1000-dən artıq cinayətkar dəstə zərərsizləşdirildi.

İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə Daxili İşlər Nazirliyi fəaliyyətini daha da təkmilləşdirib, işini müasir dünyanın çağırışlarına uyğun qurub. Bu sistemə aid yüzlərlə yeni obyekt tikilib. Cinayət hallarına qarşı mübarizə, ictimai asayişin təminatı məqsədilə minlərlə nəqliyyat vasitəsi, xüsusi texnika alınıb. Sahə polis məntəqələrindən baş idarələrədək bütün inzibati xidmət müəssisələri yenilənib, maddi-texniki təminatı yüksəldilib, informasiya texnologiyaları ilə təchizatı yüksək səviyyəyə çatdırılıb. Azərbaycan polisinin çevik, səmərəli fəaliyyətini, cinayətkarlığa qarşı mübarizənin effektiv təşkilini təmin edən mükəmməl qanunvericilik bazası formalaşdırılıb.

Ən mühümü isə bu gün daxili işlər orqanlarındakı mənəvi ruh sağlamdır, Daxili İşlər Nazirliyinin şəxsi heyətinin Vətən və xalq qarşısındakı tarixi məsuliyyət hissi çox yüksəkdir. Tam şəffaf əsaslarla polis orqanlarına qəbul edilən gənc, cüssəli, yüksək-mənəvi əxlaqi keyfiyyətlərə malik, müasir dünyagörüşlü gənclərlə bu orqanlar mütəmadi qaydada yenilənir. Eyni zamanda polisin şərəfli adına xələl gətirəcək, cəmiyyətin öz polisinə inamını sarsıdacaq hər hansı neqativ hallara qarşı da kifayət qədər prinsipiallıq nümayiş etdirilir. Azərbaycan polisi fəaliyyətini bütün parametrlər üzrə yeni dövrün tələblərinə uyğun qurur. Dövlətə, xalqa bağlılıq, xidməti öhdəliklərə məsuliyyətli yanaşma daxili işlər orqanlarının ictimai nüfuzunu daim artırır.

İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın tarixinin ən qüdrətli mərhələsinə yetişməsi, bütün dünyada sülh, mədəniyyətlərarası dialoq, tolerantlıq məkanı kimi tanınması, xarici turistlərin arxayınlıqla Vətənimizə üz tutması, gecədən səhərə qədər mərkəzi küçələrdən səngiməyən qələbəliklər, xoş insan mənzərələri bu inkişafı təmin etmiş bütün digər təsisatlarla yanaşı, həm də Azərbaycan polisinin fədakar fəaliyyətinin yaratdığı mənzərədir.

Bu gün qlobal miqyasda tüğyan edən təhdidlər, terror dalğaları fonunda Azərbaycan özünün sabit, təhlükəsiz ölkə imicini tam təsdiqləyib. Cinayətkarlığa qarşı effektiv mübarizə, kriminogen duruma nəzarət sahəsində əldə etdiyimiz uğurlar beynəlxalq miqyasda da etiraf olunur, yüksək qiymətləndirilir. Ötən 16 ildə ölkənin müxtəlif yerlərində təşkil edilmiş 13 minə yaxın, o cümlədən respublika və beynəlxalq əhəmiyyətli 7 mindən çox kütləvi tədbirə cəlb olunan daxili işlər orqanları tərəfindən ictimai asayiş yüksək səviyyədə qorunub.

Azərbaycan polisinin ildönümü ərəfəsində Prezidentin imzaladığı sərəncamlarla general-polkovnik Ramil Usubov Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi, nazirin birinci müavini Vilayət Eyvazov isə Daxili İşlər naziri təyin olundu. İctimaiyyət Prezidentin seçimlərinə bu dəfə də razılıq və məmnuniyyət ifadə etdi. Çünki hər iki şəxs general paqonlarını gecəli-gündüzlü çətin və məsuliyyətli fəaliyyətlə, cinayətkarlığa qarşı qətiyyətli və prinsipial mübarizə ilə, dövlətçiliyimizə, Heydər Əliyev siyasi kursuna əks olan daxili və xarici qüvvələrlə birmənalı və güzəştsiz savaşlarla qazanıblar. Və bu həqiqəti xalq da aydın görür, obyektiv təhlil edir, yüksək dəyərləndirir!

25 il öncə Heydər Əliyevin tövsiyələri əsasında və şəxsi nəzarəti ilə tamamilə yenidən qurulan Daxili İşlər Nazirliyi qarşıya qoyulan məqsədlərə general-polkovnik Ramil Usubovun əzmkar fəaliyyəti, dəmir iradəsi, sarsılmaz sədaqəti, ən əsası düzgün idarəçilik metodları ilə nail oldu. 1994-cü ildə ulu öndərin təbirincə desək, "cinayətkarlar yuvasına çevrilən, siyasi və hərbi qüvvələrin təsiri altına düşən" bu sistemin 25 il müddətində həyata keçirdiyi inqilabi dəyişikliklərin mahiyyətini elə bir fakt tam izah edir: Azərbaycan bu gün dünyada ən təhlükəsiz ölkələrdən biri, sabitlik adası kimi tanınır və cinayətkarlığın səviyyəsinin azlığına görə Avropa, eləcə də MDB məkanında lider dövlətlərdəndir.

Təsadüfi deyil ki, Prezident İlham Əliyev Təhlükəsizlik Şurasının katibi vəzifəsinə təyin olunması münasibətilə Ramil Usubovu qəbul edərkən onun uzun illər Daxili İşlər naziri vəzifəsini uğurla icra etdiyini bildirmiş və qazanılan təcrübə sayəsində general-polkovnikin Təhlükəsizlik Şurasının katibi kimi məsul vəzifənin öhdəsindən də layiqincə gələcəyinə əminliyini ifadə etmişdir. Bu, həm də məsuliyyətli fəaliyyətin şərəf göstəricisidir!

General-polkovnik Vilayət Eyvazov Azərbaycan dövlətçiliyinin qüdrətlənməsinə ləyaqətlə, şərəflə xidmət edən yüksək peşəkarlığa malik kadrlardandır. Məhz 25 il öncə bu orqanlarda xidməti fəaliyyətə başlayaraq cinayət-axtarış strukturlarında müxtəlif vəzifələrdə çalışımış, DİN-in Baş Cinayət Axtarış İdarəsində şöbə rəisinin müavini, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin rəis müavini və rəisi vəzifələrində cinayətkarlara, mütəşəkkil qruplara qarşı qətiyyətli mübarizə aparmışdır. Vilayət Eyvazovu xalqımız həm də dövlət çevrilişlərinə cəhdlərdə, antimilli qəsdlərdə başıpozuq dəstələrin üzərinə qorxmadan, çəkinmədən yeridiyini dəfələrlə görüb. "Azadlıq" meydanında silahlanmış xəyanətkarların mühasirəsinə düşən əməkdaşlarını tək canı ilə xilas etməsi, onlarla cinayətkarın üzərinə cəsarətlə yürüməsi isə Vilayət Eyvazovun yalnız zabit şərəfini qoruması, vəzifə andına riayəti deyildi, bu həm də ulu öndərin ideyalarına, Prezident İlham Əliyevin kursuna sonsuz sədaqətinin nümunəsi sayılır!



Bir mühüm fakt da budur ki, xidmətdə polis nəfərliyindən ali rəhbərliyədək yüksəlmək imkanı şəxsi qabiliyyət və yüksək fərdi keyfiyyətlərlə yanaş, həm də Prezident İlham Əliyevin yaratdığı mükəmməl idarəçilik mexanizminin və bacarıqlı kadrlara, gənc nəslə etimadının daha bir təsdiqi, həmçinin general-polkovnik Ramil Usubovun daxili işlər orqanlarında tətbiq etdiyi şəffaf və obyektiv əsaslarla karyera yüksəlişi sisteminin təzahürüdür.

Azərbaycan polisinin fəaliyyətə başlamasının 101-ci ili ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsinin 50-ci ildönümü ərəfəsinə təsadüf edir. Heydər Əliyev ideyalarına və Prezident İlham Əliyevin fəaliyyət kursuna sədaqətli, fədakar, peşəkar xidməti əsas vəzifə borcu kimi qəbul edən daxili işlər orqanları əminik ki, müstəqil Azərbaycanın daha da çiçəklənməsi və qüdrətlənməsi naminə üzərinə düşən vəzifənin öhdəsindən bundan sonra da layiqincə gələcəkdir.

*Ötən 50 ildə əldə olunan nailiyyətlər qarşıdakı onilliklərdə gerçəkləşəcək möhtəşəm inkişafın etibarlı bünövrəsidir və bu təməli qorumaq, möhkəmləndirmək, gələcək nəsillərə ötürülməsini təmin etmək, eyni zamanda daxili işlər orqanlarının da başlıca məramıdır.*

**İxtiyar HÜSEYNLİ,**
***"Azərbaycan"***

### Kimdir polis?

- Bizim asayişimiz üçün düşünmədən özlərini qurban verən qəhrəmanlardır...
- Dövlətin təhlükəsizliyini qorumaq naminə canlarını sipər edən fədailərdir...
- Müstəqilliyin əbədiliyi, ölkənin sabitliyi üçün terrorçunun üstünə yeriyən, cinayətkarı bir həmlədə zərərsizləşdirən igidlərdir...
- Onlar həm də Vətən uğrunda şəhidlərdir...
- Gecə-gündüz demədən, yağışa-borana, qızmar günəşə, sərt küləyə baxmadan yollarda hərəkəti tənzimləyən, küçələrdə rahatlığı təmin edən, bədnam ünsürlərə əl-qol açmaq imkanı verməyən əsl dostlardır...
- Azərbaycanı dünyanın ən təhlükəsiz ölkələrindən birinə çevirməyə müvəffəq olan peşəkarlardır...
- Məmləkətimizin vətənpərvərləridir, ər oğullarıdır...
- 101 illik istiqlalımızın 101 illik canlı sipərləridir...

# Dünyada siyasi və iqtisadi vəziyyət pisləşib

## G20 sammiti bu faktı təsdiqləməklə kifayətləndi

*Əvvəli 1-ci səh.*

### İqlim dəyişikliyi: fikir ayrılığı qalır

BMT-nin üzvü olan 190 dövlətin Parisdə iqlimin müdafiəsi haqqında sazişin imzlanmasından dörd il keçir. O vaxt həm yoxsul, həm də varlı ölkələr sazişə qoşularaq Yer üzərində temperaturun 2 dərəcədən çox artmasına imkan verməmək istəyirdi. Varlı ölkələr yoxsullara kömək etməli idi. Bu məqsədə nail olmaq üçün gələn ildən etibarən hər il 100 milyard dollar məbləğində vəsait ayırmaq barədə söhbət gedirdi.

Saziş imzalandıqdan bir il sonra Donald Tramp ABŞ-ın Prezidenti seçildi və o, sələfi Barak Obamanın dəstəklədiyi sazişdən tezliklə çıxacağını bəyan etdi. Tramp bildirirdi ki, Paris sazişi ölkəsinin maraqlarına cavab vermir, amerikalı fəhlələrin və vergiödəyicilərinin mənafeyinə ziddir. Özü də söhbət təkcə ABŞ-dan getmir. Rusiya, İraq və İran kimi ölkələr iqlimin müdafiəsi haqqında beynəlxalq sazişi hələ də birmənalı şəkildə dəstəkləməmişdir. Avstraliya və Braziliyada isə millətçiliyi ilə seçilən ifrat sağçılar hakimiyyətə gəlmişlər. Onlar da iqlim dəyişikliyi ilə mübarizədə maraqlı deyillər.

Osaka sammitində dünya birliyini ən çox narahat edən iqlim dəyişikliyi problemi yenidən gündəliyə gəldi. Bu dəfə də məsələyə münasibətdə kompromis əldə etmək çətin oldu. Belə ki, ABŞ yekun bəyannamədə iqlim dəyişikliyi probleminə toxunmamağı tələb edirdi. Fransa Prezidenti Emmanuel Makron isə iqlim dəyişikliyinə dair Paris sazişinin yekun bəyannaməyə salınmayacağı təqdirdə sənədi imzalamayacağını bildirirdi. Uzun-uzadı müzakirələrdən sonra, nəhayət, çıxış yolu tapmaq mümkün oldu, ABŞ-ın mövqeyi ayrıca qeyd edildi. Yekun bəyannamədə iqlim və ekologiya məsələlərinə dair G20 ölkələri arasında ixtilaflar əksini tapdı. Paris sazişini imzalamış ölkələrin əksəriyyəti sazişi müdafiə etdi, başqa bir bənddə qeyd olundu ki, "Birləşmiş Ştatlar Paris iqlim sazişindən çıxmaq barədə qərarını təsdiqləyir".

Bununla yanaşı, sammitdə iqlim dəyişikliyi ilə əlaqədar bir məsələ barədə razılaşma əldə edildi. İştirakçılar belə bir razılığa gəldilər ki, G20 ölkələri 2050-ci ilədək dünya okeanı sularına plastik tullantıların atılmasına tamamilə son qoymağa çalışacaq.

### ABŞ-Çin: Vaşinqton yeni rüsumlar tətbiq etməyəcək

Osaka sammitində ABŞ və Çin liderlərinin görüşü dünya iqtisadiyyatı üçün vacib idi, çünki bu iki ölkə ticarət müharibəsi vəziyyətindədir. Vaşinqton və Pekin bir neçə aydır ticarət mübahisələrini tənzimləmək üçün danışıqlar aparırdı. Məsləhətləşmələrin sonuncu, 11-ci raundu bu il may ayının ortalarında ABŞ paytaxtında keçirilmiş, amma bundan sonra danışıqlar dalana dirənmişdir. ABŞ mayın 10-da 200 milyard dollarlıq Çin məhsuluna əlavə gömrük rüsumları tətbiq etmişdir. Ötən ayın əvvəllərində Çin hökuməti cavab tədbirləri görərək ABŞ-ın 60 milyard dollar dəyərində məhsullarına əlavə rüsumlar tətbiq olunması barədə qərar qəbul etmişdir.

Ötən şənbə günü ABŞ Prezidenti G20 sammitinin yekunlarına görə keçirdiyi mətbuat konfransında bəyan etmişdir ki, Vaşinqton hələlik Çin məhsullarına yeni rüsumlar tətbiq etmək niyyətində deyil, Pekin isə ABŞ-dan kənd təsərrüfatı və qida məhsulları idxalını genişləndirməyi planlaşdırır. O əlavə etmişdir ki, "biz Çinlə işi dayandığı yerdən davam etdirəcək, sazişə gəlib-gələ bilməyəcəyimizə baxacağıq".

Öz növbəsində Çin tərəfi ABŞ-la danışıqların davam edəcəyindən məmnunluğunu ifadə etmişdir. Bununla yanaşı, vurğulanmışdır ki, Çin rəhbərliyi ölkənin suverenliyini və milli maraqlarını qətiyyətlə müdafiə etmək niyyətindədir.

### "Türkiyə ilə ədalətli davranılmamışdı"

G20 sammiti çərçivəsində ABŞ və Türkiyə prezidentləri Donald Tramp və Rəcəb Tayyib Ərdoğanın görüşünün nəticələri də xüsusi maraq doğururdu. Məlum olduğu kimi, ABŞ Türkiyənin Rusiyadan S-400 zenit-raket komplekslərini almasının əleyhinə çıxır, əks-təqdirdə, Ankaraya qarşı sanksiyalar tətbiq etməklə hədələyirdi. Üstəlik, Vaşinqton Türkiyəni beşinci nəsil F-35 döyüş təyyarələrinin istehsalı layihəsindən çıxaracağını bəyan edirdi. Artıq türkiyəli təyyarəçilərin ABŞ-da təlimi dayandırılmışdır.

Osakada Tramp-Ərdoğan görüşü Ağ ev sahibinin gözlənilməz bəyanatları ilə yadda qaldı. ABŞ lideri Türkiyə ilə qarşılıqlı münasibətlərin gərginləşməsində sələfi Barak Obamanı günahlandırdı. Tramp qeyd etdi ki, "Türkiyə ilə ədalətli davranılmamışdı". O əlavə etdi ki, bu işdə "Ərdoğanın günahı yoxdur", çünki Obama administrasiyası Türkiyəyə "Patriot" raketləri satmaqdan imtina etdiyinə görə Ankara Rusiyadan S-400 komplekslәri almaq qərarına gəlmişdir.

Öz növbəsində Ərdoğan nəzərə çarpdırmışdır ki, Trampla görüş zamanı ABŞ lideri "sanksiya" sözünü dilə gətirməmişdir. O vurğulamışdır ki, Rusiyadan S-400-lərin alınmasında geriyə yol yoxdur - Moskva ilə bağlanmış müqaviləni ləğv etmək Türkiyə kimi dövlətə yaraşmaz.

Yeri gəlmişkən, Ərdoğanla görüşdən qabaq ABŞ Prezidenti qeyd etmişdi ki, Türkiyə ilə münasibətlərdə yaranmış vəziyyəti tənzimləmək üçün tərəflər müxtəlif variantları nəzərdən keçirir. Özü də Tramp sanksiyaların tətbiqini tamamilə istisna etməmişdi.

ABŞ və Türkiyə liderlərinin görüşündə Suriya problemi də müzakirə edildi, amma tərəflərin mövqeləri fərqli oldu. Söhbət ilk növbədə PKK terrorçu təşkilatının Suriya uzantısı olan və ABŞ-dan dəstək alan YPG qruplaşmasından getdi. Tramp iddia etdi ki, o, Türkiyə qoşunlarının Suriya kürdlərinə "öldürücü zərbə"sinin qarşısını almışdır. Ərdoğan isə bu fikrə etiraz edərək konkret ölkə adı çəkmədən bildirdi ki, "bəzi müttəfiqlərimiz" YPG və PKK kimi etnik təmizləmələr həyata keçirən qruplaşmaları dəstəkləyirlər. O qeyd etdi ki, Suriyada terrorizmə qarşı mübarizədən söhbət gedəndə ciddi problemlər və ixtilaflar ortaya çıxır.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində ilk plenar iclası

## Sessiyanın ilk günündə Bakı Bəyannaməsi qəbul edilib



İyulun 1-də Bakı Konqres Mərkəzində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində ilk plenar iclas işə başlayıb. Plenar iclasda sessiyanın gündəliyi açıqlanıb və iştirakçı ölkələrin nümayəndələrinin hesabatları dinlənilib.

AZƏRTAC xəbər verir ki, sessiyanın təşkilat komitəsinin sədri, Azərbaycanın Mədəniyyət naziri Əbülfəs Qarayev çıxış edərək qonaqları salamlayıb, gündəliklə bağlı məlumat verib.

Bildirib ki, dünyanın 180-dək ölkəsindən 3 minə yaxın nümayəndənin qatıldığı tədbir respublikamızın beynəlxalq arenada yüksək nüfuzunun təsdiqi olmaqla bərabər, Azərbaycanın tarixinin və müasir inkişaf səviyyəsinin, zəngin mədəniyyətinin, incəsənətinin dünyaya nümayişi üçün mühüm imkandır. "Bütün iştirakçılar Azərbaycanın mədəni irsi ilə artıq tanışdırlar. Möhtəşəm açılış mərasimi onlarda ölkəmiz haqqında geniş təsəvvür yaradıb. Biz çalışmalıyıq ki, bütün qonaqlar bu sessiyada öz fikirlərini sərbəst şəkildə çatdıra bilsinlər", - deyə Mədəniyyət naziri bildirib.

UNESKO-nun Ümumdünya İrs Mərkəzinin direktoru xanım Mextild Rossler tədbirin əhəmiyyətini vurğulayıb. Tədbir çərçivəsində keçirilən Abidə Menecerlərinin Forumu və Gənc Peşəkarlar Forumunun işini yüksək dəyərləndirən direktor təşkil edilən sessiyalarda maraqlı müzakirələrin şahidi olduğunu diqqətə çatdırıb. Bildirib ki, UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak etmək üçün Bakıya bu sahənin çoxsaylı mütəxəssisləri toplaşıb. Burada olduğumuz bir neçə gün ərzində biz təşkilati işlərin yüksək səviyyədə həyata keçirildiyinin şahidiyik. Eyni zamanda, onu da qeyd etmək istərdim ki, Azərbaycan mədəni sərvətlərinə, irs nümunələrinə diqqət və qayğı ilə yanaşır.

Sessiyada müzakirə ediləcək bütün məsələlərin komitənin veb-saytında canlı olaraq yayımlandığını söyləyən xanım Rossler diqqətə çatdırıb ki, UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının gündəliyinə büro üzvlərinin istəyi ilə dəyişiklik edilə bilər.

Bildirilib ki, Bakı sessiyasında UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmək üçün üzv dövlətlər tərəfindən təqdim olunmuş 36 namizəd fayl nəzərdən keçiriləcək. Namizədliyi irəli sürülmüş faylların 28-i mədəni, 6-sı təbiət, 2-si qarışıq (təbiət və mədəni) abidələr sırasına daxildir. Sessiyalarda ilk olaraq siyahı üzrə təbiət, daha sonra mədəni obyektlər üzrə nominasiyalar müzakirə ediləcək. Vurğulanıb ki, sessiya çərçivəsində 50-yə yaxın paralel tədbir və sərgi də təşkil olunacaq. Eyni zamanda, Bakıda UNESKO-nun siyahısında olan və təhlükə ilə üzləşən 166 abidənin hazırkı vəziyyəti müzakirə ediləcək.

Sonra UNESKO-nun Ümumdünya İrs Komitəsinin 42-ci sessiyasının məruzəçisi Anna Zeçner çıxış edib. O, ötən sessiya haqqında geniş məlumat verib və bildirib ki, sessiyada 225 qərar qəbul edilib və 19 mədəniyyət nümunəsi UNESKO-nun Ümumdünya İrs Siyahısına salınıb. Bununla da UNESKO-nun siyahısına daxil olan mədəniyyət nümunələrinin sayı 1092-yə çatıb. Bildirib ki, Bəhreyndə 2975 nümayəndənin qatıldığı 42-ci sessiyada 157 konservasiya olunmuş abidənin durumu barədə məlumat verilib və 54 irs nümunəsi təhlükədə olan mədəniyyət abidələrinin siyahısına daxil edilib.

Azərbaycanın UNESKO yanında daimi nümayəndəliyinin əməkdaşı Rəşad Baratlı hesabatla çıxış edib. O, görülən işlərdən və qarşıda duran vəzifələrdən danışıb.

Sonra Norveç, Zimbabve, Tunis, Tanzaniya, Braziliya, Bosniya və Herseqovina, Koreya Respublikası, Fransa və digər ölkələri təmsil edən nümayəndələr çıxış edərək tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlıqlarını ifadə ediblər.

Dünyada mədəni irsin qorunmasının vacibliyindən danışan natiqlər bu istiqamətdə UNESKO-nun Ümumdünya İrs Mərkəzinin gördüyü işləri yüksək qiymətləndiriblər. Bildirilib ki, Ümumdünya İrs Mərkəzi ilə qurulan və genişləndirilən əlaqələr dünyada həm sülhə, həm də mədəni inkişafa xidmət edir.

Vurğulanıb ki, Bakı sessiyasının keçiriləcəyi günlərdə dünya üçün əhəmiyyətli olan məsələlər müzakirə ediləcək, təhlükədə olan tarixi abidələrlə bağlı geniş fikir mübadiləsi aparılacaq və bir çox mədəni nümunələr UNESKO-nun siyahısına salınacaq.

Günün birinci yarısındakı müzakirələrə yekun vuran təşkilat komitəsinin sədri Əbülfəs Qarayev Bakı Bəyannaməsinin qəbul olunmasını təklif edib. Bildirib ki, bu bəyannamə dünyada mədəni irsin qorunmasına xidmət edir və dünya ictimaiyyətinin diqqətini bu məsələyə yönəltmək məqsədi daşıyır.

Sonra iştirakçı ölkələr tərəfindən Bakı Bəyannaməsi qəbul edilib.

Tədbirdə 43-cü sessiya çərçivəsində təşkil edilən "Dünya irsi. Gənc Peşəkarlar Forumu" barədə də məlumat verilib. Bildirilib ki, iyunun 24-də işə başlayan forumda dünyanın 30 ölkəsini təmsil edən 30 gənc irs mütəxəssisi iştirak edib. Son illər Ümumdünya İrs Komitəsinin illik sessiyaları çərçivəsində ənənəvi olaraq təşkil edilən Gənc Peşəkarlar Forumunun builki mövzusu "Ümumdünya irsi: qlobal çağırışlar üçün yerli ideyalar"a həsr olunub. Forumun ümumi məqsədi XXI əsrdə dünyada irsin idarə edilməsində mövcud problemlərin və imkanların üzə çıxarılmasıdır.

"Dünya irsi. Gənc Peşəkarlar Forumu"na həsr edilmiş videomaterialın təqdim edildiyi tədbirdə bir daha gənc peşəkarlar məqsəd və məramlarını və gələcəyə ünvanlanmış mesajlarını diqqətə çatdırıblar.

Sonra "Dünya irsi. Gənc Peşəkarlar Forumu"nun üzvləri xatirə şəkli çəkdiriblər.

Plenar iclas işini günün ikinci yarısında da davam etdirib və hesabatlar dinlənilib.

Mədəni Mülkiyyətin Mühafizəsi və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin (ICCROM) nümayəndəsi çıxışı zamanı son dövr fəaliyyət istiqamətləri barədə məlumatları diqqətə çatdırıb. Təşkilatın Afrika və ərəb dövlətləri ilə bağlı fəaliyyətinin və görülən işlərin müsbət nəticələndiyini vurğulayan nümayəndə bu ölkələrə səfər zamanı həm də təcrübələrin paylaşıldığını və regionlarla əlaqələrin qurulduğunu söyləyib. Bir çox təşkilatlarla birgə layihələrin və proqramların reallaşdırıldığı bildirilib. Təşkilatın münaqişələrdən sonra ərazilərdə mədəni irsin qorunması və bərpası istiqamətindəki fəaliyyətdən söz açılıb. Qurumun üzərinə düşən işin öhdəsindən uğurla gəldiyi plenar iştirakçılarının diqqətinə çatdırılıb.

Təbiətin Konservasiyası üzrə Beynəlxalq İttifaqın hesabatında Azərbaycan hökumətinə minnətdarlıq ifadə edilib. Bildirilib ki, təşkilat dayanıqlı məqsədlərin inkişafına mane olan təhdidlərin qarşısını almaqda maraqlıdır. Bu istiqamətdə innovativ yeniliklər və ideyalarla bağlı tematik qrup fəaliyyət göstərir.

Dünya İrs Mərkəzinin nümayəndəsi dayanıqlı inkişaf, gender bərabərliyi, konvensiyanın icrası ilə bağlı yerlərdə reallaşdırılan layihələrdən danışıb.

Daha sonra plenar iclasda iştirakçı ölkələrin təklifləri səsləndirilib. Təkliflər zamanı Dayanıqlı İnkişaf Məqsədləri, etnik problemlər, hərtərəfli yanaşma məsələləri mövzularında fikirlər səsləndirilib. Müxtəlif təşkilat və assosiasiyaların nümayəndələri sessiyalar çərçivəsində səslənəcək fikir və ideyaların ictimaiyyət üçün işıqlandırılması təklifini irəli sürüblər.

Bununla da UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində ilk plenar iclasa yekun vurulub.

# Azərbaycanın Müdafiə naziri Belarusda bir sıra görüşlər keçirəcək

Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Belarus Respublikasının Müdafiə naziri, general-leytenant Andrey Ravkovun dəvəti ilə bu gün Minskə səfərə yola düşəcək.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Belarus Respublikasının alman-faşist işğalçılarından azad olunmasının 75-ci ildönümü və Müstəqillik Gününə həsr olunmuş təntənəli tədbirlərdə iştirak edəcək.

Müdafiə nazirinin, həmçinin bu ölkənin hərbi-siyasi rəhbərliyi ilə görüşləri və Azərbaycanın Milli Qəhrəmanı mayor Anatoli Davidoviçin ailə üzvlərini ziyarət etməsi nəzərdə tutulub.

Qeyd edək ki, iyulun 3-də Minskdə keçiriləcək hərbi paradda Azərbaycan Ordusunun hərbi qulluqçuları da iştirak edəcəklər.

# Əsas məqsəd dərslərin inklüziv, interaktiv təlim vasitəsilə praktik tədrisinə nail olmaqdır




Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında TOPs layihəsinin 5-ci mövsümünün bağlanış mərasimi keçirilib.

"TOPs - fiziki tərbiyə üzrə müasir təhsil texnologiyasının yaradılması" layihəsi Təhsil Nazirliyi, "British Council Azerbaijan", Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası və "İnkişaf Naminə İdman" İctimai Birliyinin əməkdaşlığı ilə 2014-cü ildən həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, bağlanış mərasimində 2018-2019-cu tədris ilində TOPs proqramına 100 məktəbin əlavə olunduğu bildirilib. Diqqətə çatdırılıb ki, əlavə olunmuş məktəblərdən TOPs təlimlərinə ümumilikdə 600 nəfərə yaxın müəllim cəlb edilib. Onlardan 400-ü fiziki tərbiyə, 200-ü ibtidai sinif müəllimidir.

Tədbirdə çıxış edən Təhsil nazirinin müavini Firudin Qurbanov deyib ki, TOPs proqramına Azərbaycanda ilk dəfə 2014-cü ildə Bakı şəhərinin 3 ümumtəhsil məktəbində pilot layihə kimi start verilib və hazırda ona qoşulan məktəblərin sayı 250-yə çatdırılıb. TOPs, həmçinin inklüziv təhsilin inkişaf etdirilməsinə olduqca yaxşı zəmin yaradan tədris metodikasıdır. Layihənin əsas məqsədləri təlimlər əsasında müəllimlərin bacarıqlarını artırmaqla dərslərin inklüziv, interaktiv təlim vasitəsilə praktik tədrisinə nail olmaqdır. Fiziki tərbiyə dərslərinin tədrisində I-IX siniflər üzrə innovativ tədris materialları hazırlanması da bir yenilikdir və müəllim fəaliyyətinin stimullaşdırılması üçün nəzərdə tutulur. Bu materiallar müəllimlərə dərslərdə daha rəngarəng, inklüziv və mövcud tədris proqramına uyğun olaraq çevik dəyişikliklər etmək imkanı verir. Təlimlərdən sonra müəllimlər yeni tədris metodikası ilə daha keyfiyyətli fiziki tərbiyə üzrə "açıq dərs"lər keçib və idman festivalları təşkil ediblər. Bütün bunların nəticəsində şagirdlərdə fiziki tərbiyə dərslərinə maraq müsbətə doğru dəyişib və idmana bağlılıq artıb. Ümumilikdə təlimlərdən keçən müəllimlərin sayı 2 min nəfər, layihədən yararlanan şagirdlərin sayı isə 240 minə yaxındır. Bu proqramın növbəti tədris illərində respublikamızın bütün ümumtəhsil məktəblərində tətbiq olunması nəzərdə tutulur.

"British Council" təşkilatının Azərbaycandakı nümayəndəliyinin direktoru Samr Şah, Milli Olimpiya Komitəsinin üzvü, "İnkişaf Naminə İdman" İctimai Birliyinin sədri Mehman Kərimov və digər çıxış edənlər TOPs layihəsi ilə bağlı fikirlərini bildirib, onun əhəmiyyətini vurğulayıblar.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının prorektoru Təhminə Tağızadə iştirakçılara TOPs layihəsi çərçivəsində akademiyanın Elmi Tədris Laboratoriyasında aparılmış tədqiqat işinin nəticələri haqqında məlumat verib.

Layihə çərçivəsində müəllim fəaliyyətinin stimullaşdırılması üçün 2017-2018-ci tədris ili üzrə elan edilən müxtəlif nominasiyalı müsabiqələrin qalibləri təltif olunublar.

# UNESKO-nun Baş direktoru Qobustan Milli Tarix-Bədii Qoruğunda olub





Azərbaycanda səfərdə olan UNESKO-nun Baş direktoru xanım Odre Azule iyunun 30-da Qobustan Milli Tarix-Bədii Qoruğunda olub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə qonaq qoruğun ərazisində yaradılmış muzeydə nümayiş etdirilən eksponatlara baxıb.

Burada olmaqdan şərəf hissi duyduğunu bildirən O.Azule söyləyib ki, Qobustanın qədim tarixi vardır. İnsanların bu məkana qarşı xoş münasibətinin şahidi oldum.

Məlumat verilib ki, Qobustan Milli Tarix-Bədii Qoruğu açıq səma altında qoruq-muzey kimi böyük şöhrət qazanıb. Ərazidə Daş dövründən Son Orta əsrlərə qədərki həyat və məişəti əks etdirən çoxsaylı maddi mədəniyyət nümunələrini müasir azərbaycanlıların ulu əcdadları min illər ərzində yaradıblar. Qobustan qaya rəsmləri dünyada bu tipli abidələrdən ən zənginidir. Qoruq ərazisində alimlər tərəfindən 6 mindən çox qayaüstü təsvir, 20 mağara və yaşayış yeri, 40 kurqan aşkar edilib və öyrənilib. Qeyd edilib ki, Qobustan qoruğundakı nadir qayaüstü rəsmlərin geniş təbliğinin xüsusi əhəmiyyətini nəzərə alan dövlət başçısı İlham Əliyevin sərəncamı ilə qoruq muzeyi üçün yeni bina tikilib.

Qonağın diqqətinə çatdırılıb ki, dünya əhəmiyyətli tarixi abidə olan Qobustan qoruğu 2007-ci ildə UNESKO-nun Maddi-Mədəni İrs Siyahısına daxil edilib.

Səfər çərçivəsində qonaq Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının təşkilatçılığı ilə keçirilən qadınların əl işlərindən ibarət "Göz nuru, əl əməyi" adlı sərgi ilə tanış olub. Həmçinin təşkil olunan "Qavaldaş" adlı zərb çalğı alətlərinin müxtəlif növlərində ifalar dinləyib, "Uşaq və Gənclərin II Respublika Festivalı" müsabiqəsində olub.

# Abidə Menecerləri Forumu çərçivəsində tematik qrup işinin ilk müzakirəsi təşkil olunub

İyunun 30-da Abidə Menecerləri Forumu çərçivəsində iştirakçıların tematik qrup işinin ilk müzakirəsi təşkil olunub. AZƏRTAC xəbər verir ki, "Bugünkü Bakının ən yaxşıları sabahın Bakısıdır" mövzusuna həsr edilən müzakirədə paytaxtımızın nadir memarlığı ilə insanları heyran qoyan qədim və müasir abidələri haqqında geniş fikir mübadiləsi aparılıb. Forumun iştirakçısı olan mütəxəssislər Bakının abidələri haqqında maraqlı fikirlər səsləndiriblər.

Mütəxəssislər şəhərin abidələri ilə yanaşı, ekoloji vəziyyət və digər mövzularda da müzakirələr aparıblar. Tematik qrup işinin ilk müzakirəsi müvafiq mövzular üzrə diskusiyalarla davam edib.

# "Davamlı inkişaf və irsin idarə olunması" mövzusunda müzakirələr aparılıb

İyunun 30-da Bakıda UNESKO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası işə başlayıb. İyulun 10-dək davam edəcək sessiya çərçivəsində Dünya İrsi Gənc Peşəkarlar Forumu və Dünya İrsi Abidə Menecerləri Forumu keçirilir. AZƏRTAC xəbər verir ki, Abidə Menecerləri Forumu iyunun 30-da öz işini davam etdirib.

Forumun dördüncü günündə Mədəni mülkiyyətin mühafizəsi və bərpasının öyrənilməsi üzrə beynəlxalq mərkəzin (ICCROM) təmsilçisi Gamini Vijesuriyanın moderatorluğu ilə "Davamlı inkişaf və irsin idarə olunması ilə bağlı əsas məsələlər" mövzusunda müzakirələr aparılıb. Tədbirdə Bakıda yerləşən abidələrin 2050-ci ilədək idarə olunması üzrə əsas fəaliyyət istiqamətlərindən və zəruri prinsiplərdən danışılıb.

Qrup şəklində aparılan müzakirələr zamanı qədimilik və müasirlik arasında harmoniya, etibarlılıq, müxtəliflik, qoruma, memarlıq, Bakının rəmzləri, görünmə bucağı, müvafiq konservasiya məsələləri ilə bağlı fikirlər dinlənilib. Mütəxəssislər tolerantlıq, multikulturalizm və mənəvi dəyərlərin qorunması ilə bağlı məsələlərə toxunublar. Müzakirələrdə, həmçinin iştirakçılar şüurlu münasibətin artırılması və vahid şəhər anlayışına dair düşüncələrini də bölüşüblər.

Tədbirdə hər bir iştirakçı öz ölkəsindəki abidələr və onların qorunmasına dair məruzə ilə çıxış edib. Çıxışlarda abidələrin mühafizəsi sahəsində müsbət və mənfi meyillər barədə məlumat verilib, bu istiqamətdə UNESKO-nun fəaliyyəti, təşkilatın yardım edə biləcəyi məqamlardan bəhs olunub. Ölkələrin özünəməxsusluğu, mədəni müxtəlifliyi, irsin qorunmasına dövlət dəstəyi, vətəndaş münasibəti və bu sahədə könüllülük məsələlərinə xüsusi diqqət yetirilib.

# TANAP Avropaya qaz nəqli üçün tam hazırdır

## "Cənub qaz dəhlizi"nin əsas seqmentlərindən olan TANAP tamamlandı




"Cənub qaz dəhlizi"nin ən böyük hissəsi olan Transanadolu təbii qaz boru kəməri (TANAP) 2019-cu il iyulun 1-də Azərbaycan qazının Avropaya nəql edilməsi üçün hazır vəziyyətə gətirilmişdir. Dəhlizin son hissəsi olan TAP boru kəməri də tamamlandıqdan sonra Azərbaycanın "Şahdəniz-2" layihəsi çərçivəsində çıxarılan təbii qaz TANAP və TAP kəmərləri vasitəsilə Avropaya nəql ediləcək, ölkəmizin gəlirlərini artıraraq, Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verəcək.

TANAP eyni zamanda tarixə Türkiyə, Yaxın Şərq və Avropanın ən uzun və ən geniş diametrli təbii qaz boru xətti kimi daxil olmuşdur. Azərbaycan və Türkiyənin uzunmüddətli strateji enerji əməkdaşlığının ən mühüm bəhrələrindən olan TANAP layihəsi tamamlanmışdır. Ərdəhanın Posof qəsəbəsindən başlayaraq Türkiyə ərazisi boyunca 20 şəhərin bölgəsindən, 67 qəsəbə və 600 kənddən keçən və Ədirnənin İpsala qəsəbəsində Avropaya çatan 1850 kilometrlik boru xətti Azərbaycan qazını Türkiyə-Yunanıstan sərhədində Transadriatik boru kəməri vasitəsilə Avropaya nəql edəcək.

"Şahdəniz-2" layihəsi çərçivəsində hasil olunan Azərbaycan təbii qazını əvvəlcə Türkiyəyə, sonra da Avropaya nəql edəcək "Cənub qaz dəhlizi"nin önəmli həlqəsi olan TANAP-ın Türkiyə-Gürcüstan sərhədindən Əskişəhərə qədər olan hissəsi 2018-ci il iyunun 12-də keçirilmiş beynəlxalq açılış mərasimində istifadəyə verilmiş, iyunun 30-da isə Türkiyəyə kommersiya məqsədli qazın axını başlamışdır. Boru xəttinin Əskişəhərdən Türkiyə-Yunanıstan sərhədinə qədər olan ikinci hissəsində isə mexaniki tamamlama işləri 2018-ci ilin sonunda başa çatmış, cari ilin aprelində xəttə sınaq məqsədilə qaz vurulmuşdur. Türkiyə-Yunanıstan sərhədində TANAP ilə birləşəcək TAP boru kəmərində aparılan işlər tamamlandıqdan sonra Azərbaycan qazı gələn ildən etibarən Avropa bazarlarına nəql olunacaq.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev demişdir: "Azərbaycan bu gün bütün dünyaya bir daha göstərmişdir ki, biz nəinki ölkə daxilində, həm də xarici ölkələrdə mürəkkəb transmilli layihələri vaxtında və yüksək səmərə ilə yerinə yetirməyə qadirik. SOCAR TANAP-ın icrasında öz tərəfdaşları ilə birlikdə 5 milyard dollara yaxın vəsaitə qənaət edərək layihənin ümumi xərclərini 40 faiz azaltmağa nail olmuşdur. Bu hadisə başda möhtərəm Prezident İlham Əliyev və qardaş Türkiyənin möhtərəm Prezidenti Rəcəb Tayyib Ərdoğan olmaqla, belə bir tarixi missiyanı bizə həvalə etmiş Azərbaycan və Türkiyə xalqlarının möhtəşəm uğurudur."

"Cənub qaz dəhlizi"nin əsas seqmentlərindən olan TANAP boru kəmərinin hüquqi bazası 2012-ci ildə yaradılmışdır. Layihə üzrə yekun investisiya qərarı 2013-cü il dekabrın 17-də qəbul edilmişdir. 2015-ci ildə Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Qarsda keçirilən təməlqoyma mərasimindən sonra kəmərin inşaat işləri başlamışdır. TANAP-ın Türkiyə-Gürcüstan sərhədindən Əskişəhərə qədər olan ilk mərhələsi 2018-ci ilin iyununda tamamlanmışdır. 2019-cu ilin iyunun sonunadək layihənin Əskişəhərdən Türkiyə-Yunanıstan sərhədinə qədər olan ikinci mərhələsi də uğurla başa çatdırılmışdır.

Layihənin yekun investisiya qərarı veriləndə ümumi xərcləri 11,7 milyard dollar həcmində qiymətləndirilirdi. Lakin icra prosesində satınalma qərarlarının əlverişli zamanda verilməsi və layihənin idarəolunmasında səmərənin maksimum artırılması nəticəsində layihə 7 milyard dollardan aşağı xərclə tamamlanmışdır. TANAP çərçivəsində ətraf mühitə və ictimaiyyətə hörmət ifadəsi olaraq bugünədək 1000-ə yaxın sosial və ətraf mühit layihəsi həyata keçirilmiş, kəmərin keyfiyyət, ətraf mühitin mühafizəsi, əməyin sağlamlığı və təhlükəsizliyi sahəsində beynəlxalq miqyasda nümunəvi göstəricilərə nail olunmuşdur.

TANAP boru kəmərinin səhmdarları SOCAR və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin birgə müəssisəsi olan Cənub Qaz Dəhlizi QSC (51 faiz), BOTAŞ (30 faiz), BP (12 faiz) və "SOCAR Türkiyə" Enerji A.Ş (7 faiz) şirkətləridir.

***R.MƏMMƏDLİ,***
***"Azərbaycan"***

# Gənc Peşəkarlar Forumunun iştirakçılarına sertifikatlar təqdim edilib

Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində iyunun 24-dən Bakıda Dünya İrsi Gənc Peşəkarlar Forumu keçirilir. İyulun 2-dək davam edəcək forum ərzində müxtəlif ölkələrdən gənc mütəxəssislər qarşılıqlı fikir mübadiləsi aparır, ölkəmizin tarixi məkanlarına səfər edərək bu məkanların qorunma sistemi ilə tanış olurlar. AZƏRTAC xəbər verir ki, iyulun 1-də forum iştirakçılarına sertifikatlar təqdim olunub.

UNESKO-nun Baş direktorunun müavini Ernesto Ottone çıxış edərək tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə təşəkkürünü bildirib. O, gənc peşəkarlar üçün yaradılan şərait, forumun uğurla keçirilməsi barədə fikirlərini bölüşüb və mədəni irsin qorunmasında gənclərin rolunu xüsusi vurğulayıb. Dünya İrs Komitəsinin 43-cü sessiyası ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri, Mədəniyyət naziri Əbülfəs Qarayev forumun iştirakçılarına təşəkkürünü bildirib. Nazir deyib ki, Gənc Peşəkarlar Forumu təcrübə mübadiləsi üçün geniş imkanlar yaradır və bu, gənclərin gələcək fəaliyyəti üçün çox önəmlidir.

Forumun gedişində ölkəmizi gəzən və mədəni irs nümunələrimizlə bağlı fikir bildirən gənclərə işlərində uğurlar arzulayan nazir Azərbaycanın mədəni irsini kəşf edən iştirakçıların təəssüratlarının müsbət olacağına əmin olduğunu vurğulayıb.

Sonda Gənc Peşəkarlar Forumunun iştirakçılarına sertifikatlar təqdim olunub və xatirə şəkli çəkdirilib.






# Gənclik






● Peşə təhsili

**İqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunda dinamik inkişafın təmin edilməsi, rəqabətqabiliyyətliliyin artırılması və bu sahəyə investisiya qoyuluşunun sürətləndirilməsi son illər ölkəmizdə sosial-iqtisadi sahədə nailiyyətlərin davamlılığını təmin etmişdir. Xüsusilə regionların inkişafı sahəsində həyata keçirilən tədbirlər uğurlu nəticələrə gətirib çıxarmış, bölgələr sürətlə inkişaf etməklə yanaşı, əhalinin sosial-rifah halı da xeyli yüksəlmişdir. Yeni açılan müəssisələr hesabına əhalinin məşğulluğunun təminatı istiqamətində uğurlu göstəricilərə nail olunmuşdur.**

## Bazar iqtisadiyyatı şəraitində ixtisaslı fəhlə kadrlarına ehtiyac gündən-günə artır

### Keçən il Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzini 242 nəfər bitirib və onlardan 140 nəfəri işlə təmin edilib

Qeyd etmək lazımdır ki, qeyri-neft sektorunun belə sürətli inkişafı ixtisaslı fəhlə kadrlarına da tələbatı artırır. Odur ki, dövlət siyasətində bu sahə daim diqqət mərkəzində saxlanılmaqla yanaşı, onun müsbət həlli istiqamətində də bir sıra uğurlu addımlar atılmışdır. Belə ki, son illər Azərbaycanda texniki peşə məktəblərinin fəaliyyəti canlandırılmış, bu məktəblərdə daha çox ehtiyac duyulan peşələrin öyrədilməsi ön plana çəkilmişdir. Nəticədə gənclər arasında peşə yönümünə maraq daha da artmış, öz gələcək həyatlarını müəyyənləşdirmək üçün onlarda böyük maraq oyatmışdır. "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və Peşə Təhsili və Təliminin İnkişafına dair Strateji Yol Xəritəsinə uyğun olaraq bu sahədə atılan addımlar bu gün də uğurla davam etdirilir. Xüsusilə əmək bazarında tələbatı yüksək olan prioritet sahələr üzrə ixtisaslı kadrlar hazırlaya biləcək pilot peşə təhsili müəssisəsi yaradılır. Gənclərin peşə təhsilinə cəlb olunması məqsədilə tez-tez "Açıq qapı" günləri keçirilir. Orta məktəb şagirdləri və valideynlər peşə məktəblərinə dəvət olunaraq tədris olunan ixtisaslar barədə onlara ətraflı məlumat verilir.

Respublikamızın ikinci böyük şəhəri olan Gəncədə də son illər sənaye müəssisələrinin sayı durmadan artır. Söz yox ki, bu müəssisələrin ixtisaslı fəhlə kadrları ilə təminatı ön plana çıxır. Bəs görəsən şəhərdəki peşə ixtisası verən məktəblər bunun öhdəsindən gələ bilirmi?





Bu sualla şəhərdəki 3 texniki peşə liseyini özündə birləşdirən Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsili Mərkəzində olduq. Mərkəzin direktoru Şahin Məhərrəmov gəlişimizin məqsədini biləndə vacib bir məsələ ilə maraqlandığımızı söylədi. Dedi ki, son illər dövlətimiz bu sahənin inkişafına böyük diqqət yetirir. Artıq həyata keçirilən tədbirlər öz bəhrəsini verir. Hazırda mərkəzi əhatə edən 3 liseydə 972 nəfər gənc 53 qrupda 28 ixtisas üzrə peşə ixtisasına yiyələnir. Onların 65 nəfəri ödənişli, 907 nəfəri isə dövlət hesabına təhsil alır. Təhsil alanların 214 nəfəri qızlardır. Hər il tələbələrin sayında artım qeydə alınır ki, bu da peşə ixtisasına yiyələnmək istəyənlərin sayının çox olduğuna işarədir.

Mərkəzin əhatə etdiyi liseylərin maddı-texniki bazası zəngin olduğundan burada ixtisasların öyrədilməsində heç bir problem yaşanmır. Geniş və işıqlı auditoriyalar tədrisin təşkilində lazım olan bütün vəsaitlərlə təmin olunub. Nəzəri biliklərin təcrübə ilə birləşdirilməsi üçün 14 emalatxana fəaliyyət göstərir ki, bu emalatxanalar da lazım olan dəzgahlarla, qaynaq aparatları, transformatorlarla təmin edilmiş, otaqlarda interaktiv və elektron lövhələr quraşdırılmışdır. Mərkəz zəngin laboratoriyalarla təmin edilmişdir.

Bu günlərdə daha bir emalatxana - Avropa İttifaqının (Aİ) maliyyələşdirdiyi və Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramının (BMTİP) icra etdiyi "Azərbaycan Peşə Təhsili və Təlimi Mərkəzinin müasirləşdirilməsi" qrant proqramı çərçivəsində yeni emalatxana da istifadəyə verilmişdir. Burada quraşdırılmış avadanlıqlar imkan verəcəkdir ki, gələn ildən etibarən mərkəzdə məişətdə soyutma və istilik sistemlərinə xidmət üzrə yüksəkixtisaslı mütəxəssislər hazırlansın.

Mərkəzi əhatə edən liseylərdə gənclərə öyrədilən ixtisaslar demək olar ki, indiki dövr üçün çox aktualdır. Məsələn, telekommunikasiyada kompüter texnikasının istismarı üzrə operator, kimyəvi analiz laborantı, elektrik maşınlarının təmiri üzrə çilingər, istilik şəbəkəsi avadanlıqlarının təmiri ustası, kimyəvi bakterioloji analiz laborantı, dağ-mədən işləri üzrə mütəxəssis, elektrovoz maşinisti köməkçisi, uçan aparatların cihaz avadanlığı ustası və sair ixtisaslar üzrə peşələr öyrədilir ki, son illər bu sahələr üzrə ixtisaslı kadrlara böyük ehtiyac vardır.

Gənclər ən çox hansı peşələrə maraq göstərirlər sualına Şahin Məhərrəmov belə cavab verdi ki, əvvəlki illərdə olduğu kimi, indi də telekommunikasiyada kompüter texnikasının istismarı, avtomobil üzrə elektrik, avtomobil təmiri üzrə çilingər, plastik boru qaynaqçısı, kompüter operatoru, məişət soyuducusu və istilik sistemlərinə xidmət və elektrik maşınlarının təmiri ixtisaslarına daha çox maraq göstərilir.

Qeyd edək ki, keçən il mərkəzi 242 nəfər tələbə bitirib. Onlardan 140 nəfəri işlə təmin olunub. 12 nəfər isə burada aldığı peşəni orta və ali təhsil müəssisələrində davam etdirir.

Onu da diqqətə çatdıraq ki, Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsili Mərkəzi şəhərdə və ətraf rayonlarda fəaliyyət göstərən dövlət və özəl sənaye müəssisələri ilə sıx əlaqələr qurmuşdur. Hər il həmin müəssisələrin fəhlə kadrları ilə təminatı barədə müqavilələr bağlanır. Müqaviləyə əsasən mərkəzdə təhsil alan tələbələr tez-tez həmin müəssisələrdə olur, iş prosesi ilə bağlı təcrübə toplayırlar. Belə müəssisələrdən Gəncə Avtomobil Zavodunu, Gəncə Cihazqayırma Zavodu, "Neon" firması, Gəncə Dəmiryol Rabitə İdarəsi, "Azəravtoyol" ASC-nin Gəncə filialını misal göstərmək olar.

Kadr hazırlığı ilə bağlı müəssisələrin sifarişləri də olur. Belə müəssisələrdən Gəncə Cihazqayırma Zavodunu, Gəncə Avtomobil Zavodunu, "Nazim oğulları" ASC-ni, Gəncə Telekommunikasiya İdarəsini, 8 saylı Ərazi Maliyyə Hesablama Mərkəzini, "Teleradio" İstehsalat Birliyinin Gəncə radio-televiziya yayımı filialını, "İncə S" Tikiş İstehsalat Birliyini və sair müəssisələri misal göstərmək olar.

Mərkəzdə təhsil alan tələbələr üçün hər bir şərait yaradılmışdır. Burada 150 nəfərlik yataqxanada tələbələrin asudə vaxtlarının təşkili üçün geniş imkanlar vardır. Onlar yataqxanadakı zəngin kitabxananın xidmətindən istifadə edir, müxtəlif stolüstü idman yarışları keçirirlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

● Tribuna

## Elmə marağım mənə bu uğuru qazandırdı

**Hər bir cəmiyyətin maddi-mənəvi tərəqqisi gənclər siyasətinin düzgün qurulmasından, onların sosial, psixoloji vəziyyətindən, fəaliyyət şəraitindən bilavasitə asılıdır. Azərbaycan gənclərinin müasir, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında dövlətimizin yürütdüyü gənclər siyasətinin mühüm rolu vardır. Belə ki, bu istiqamətdə ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi siyasi kurs Prezident İlham Əliyev tərəfindən uğurla və dinamik şəkildə davam etdirilməkdədir.**



Müstəqil Azərbaycanın banisi Heydər Əliyevin qeyd etdiyi kimi, təhsil millətin gələcəyidir. Bu gün ölkəmizdə elm və təhsilin XXI əsrin çağırışlarına uyğun inkişaf etdirilməsi üçün mühüm tədbirlər həyata keçirilir. Prezident İlham Əliyev tərəfindən cəmiyyətin aparıcı qüvvəsi olan gənclərə yüksək şəraitin yaradılması istiqamətində çoxsaylı fərman və sərəncamlar imzalanmış, bir sıra mühüm dövlət proqramları qəbul edilmişdir.

Prezidentin sərəncamına əsasən 2015-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasında ilk dəfə magistratura pilləsinin yaradılması ölkənin sosial-iqtisadi və mədəni inkişafına, biliklər cəmiyyətinin formalaşmasına istiqamətlənmiş mühüm addım kimi biz gənclərə göstərilən diqqət və qayğının bariz nümunəsidir. Yüksək texniki avadanlıqlarla təchiz olunmuş laboratoriyalarda çalışmaq, dünyanın aparıcı elm mərkəzləri və universitetlərində fəaliyyət göstərən nüfuzlu alimlərdən dərs almaq və onların təcrübəsindən bəhrələnmək mənim də bir mütəxəssis, gənc tədqiqatçı kimi formalaşmağımda böyük rol oynamışdır.

Mən 2012-ci ildə Bakıda orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra Bakı Dövlət Universitetinin Biologiya fakültəsinə daxil oldum, 2016-cı ildə bakalavr pilləsi üzrə təhsilimi fərqlənmə diplomu ilə başa vurdum. Həmin universitetdə təhsil aldığım müddətdə yüksək təhsil göstəricilərimə və ictimai fəallığıma görə 2013, 2014 və 2015-ci illərdə "İlin ən yaxşı tələbəsi" adına layiq görüldüm. 2016-cı ildə Azərbaycan Milli Elmlər Akademiyasının Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun "Molekulyar biologiya" ixtisası üzrə magistraturasına qəbul oldum. Magistraturada təhsil müddətində tədris edilən bütün ixtisas və qeyri-ixtisas fənlərindən 100 bal toplayaraq 2018-ci ildə təhsilimi fərqlənmə diplomu ilə bitirdim. Hazırda Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun kiçik elmi işçisiyəm.

Elmi fəaliyyətdə fərqləndiyimə görə 15 noyabr 2017-ci ildə AMEA-nın Fəxri fərmanı ilə təltif olundum. Bu ilin martında AMEA Biologiya və Tibb Elmləri Bölməsi və AMEA Gənc Alim və Mütəxəssislər Şurasının birgə təşkilatçılığı ilə "Gənc Bioloqların Qış Məktəbində" birinci yerə layiq görüldüm.

Təhsil illərində bir neçə yerli və beynəlxalq konfransda uğurla iştirak etmiş, sertifikat və diplomlarla təltif olunmuşam. 2017-ci il martın 11-16-da Sankt-Peterburq şəhərində B.P.Konstantinov adına Peterburq Nüvə Fizikası İnstitutu, "Kurçatovski" adına Elmi-Tədqiqat Mərkəzi tərəfindən təşkil olunan molekulyar biologiya və biofizika üzrə 18-ci Qış məktəbində "Идентификация ТаДРЕБ1 генов у пшеницы с использованием функциональных маркеров" mövzusunda poster prezentasiyası ilə, 2-5 iyul 2018-ci ildə Türkiyənin Nevşehir şəhərində keçirilən VII Molekulyar Biologiya və Biotexnologiya üzrə Milli Konqresdə maraqlı məruzə ilə çıxış edərək sertifikatlar aldım.

Bu gün müasir Azərbaycan gənci ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni-humanitar həyatın hər bir sahəsində üstün mövqe tutur. Azərbaycan elmini, mədəniyyətini, tarixini, adət-ənənələrini dünyada tanıtmaq üçün konfranslarda, forumlarda, festivallarda fəal iştirak edirlər. Bu da Azərbaycan gəncinin vətəninə, millətinə sevgisi, soykökünə, xalqının milli adət-ənənələrinə bağlılığının bariz nümunəsidir. Bu danılmaz faktdır ki, gənclərimizin əsl Azərbaycan vətəndaşı kimi formalaşmasında ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri var.

Ölkə Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkədə "neft kapitalının insan kapitalına çevrilməsi" istiqamətində apardıqları silsilə elm və təhsil islahatları biz gəncləri ruhlandırır və mükəmməl biliyə, yüksək mənəviyyata malik vətəndaş kimi formalaşmağımızda böyük rol oynayır. AMEA-da aparılan islahatlar və gənclərin elmə cəlb olunması, onlara göstərilən yüksək diqqət və qayğı akademiyamızın gələcəyinə böyük inam yaradır. Məhz bu qayğının nəticəsidir ki, mən İslam İnkişaf Bankının 2018-2019-cu tədris ili üçün PhD təhsil proqramının qalibi seçilmişəm. Magistratura pilləsində təhsil aldığım müddətdə beynəlxalq standartlara uyğun həm nəzəri, həm də praktiki biliklər sayəsində çoxsaylı müsahibə və testlərdən uğurla keçərək dünyanın aparıcı universitetlərindən biri olan Oksford Universitetində Onkologiya ixtisası üzrə doktoranturaya qəbul olunmuşam. Bundan sonra da çalışacağam ki, Azərbaycan elmini dünya arenasında uğurla təmsil edərək cəmiyyətə müsbət töhfələr verim.

***Gülnar ABDULLAYEVA,***
***AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun kiçik elmi işçisi***

● Özünüməşğulluq

**Gənc dedikdə öncə enerjili, çalışqan, çılğın və s. kimi şəxsi keyfiyyətlər yada düşür. Ardınca yenilikçi, müasir texnologiya ilə yaxşı davranan, internet imkanlarından istifadə edərək daha çox məlumat əldə edilməsi xatırlanır.**




## Gənclər "AMAL"a doğru irəliləyir

Məlumat isə tarixin bütün dövrlərində, eləcə də günümüzdə ən güclü silahdır. Bu kimi keyfiyyətlərinə görə həyatın bütün sahələrində gənclərin imkan və bacarıqlarından geniş istifadə edilir.

Son dövrlərdə Azərbaycanda həyata keçirilən sosial, iqtisadi, humanitar siyasətin mərkəzində gənclərin məşğulluğunun təmin edilməsi, xaricdə təhsilə, müasir peşələrə yiyələnməsinə kömək göstərilməsi dayanır. Aparılan bu siyasət özünü gənclərə istiqamətlənmiş proqramlarda da göstərir. Bu proqramlardan biri də Kənd Təsərrüfatı Nazirliyinin yeni layihəsi olan "AMAL"dır.

Bir neçə müddət əvvəl sosial şəbəkələrin birində gəncləri yeni bir istiqamətə - kənd təsərrüfatına hədəf götürən bir elan diqqətimi çəkdi. Göstərilən sayta daxil oldum, profili oxudum və daha sonra qeydiyyatdan keçdim. Az sonra isə müxtəlif informasiyalar aldım - "AMAL" layihəsinin təqdimatında iştirak, rəsmi açılış tədbirində çıxış etmək, biznes təlimləri üçün seçilmək və s. Daha sonra isə "Caspian Agro-2019" Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgisində iştirakçısı olduğum layihəni təqdim etməklə bağlı razılıq əldə etdim. Beləliklə, məlumatımın pilot olaraq digər seçilmiş rayonların bir çox gəncindən artıq olması mənə hərəkatın sıralarında olmaq imkanını qazandırdı.

İndi isə daha önəmli detal - layihənin ən mühüm nailiyyətini onda görürəm ki, bunun vasitəsilə aqrar sahəyə marağı olan gənclərin təşkilatlanma prosesi vüsət almağa başlayır. Bütün bu proseslərin fonunda aydın oldu ki, 200 nəfər həmin layihə çərçivəsində təlimlərdə iştirak edir.

Balakən gəncləri də bu proqrama fəal şəkildə qoşulub. Belə ki, rayonumuzdan 74 nəfər elektron qeydiyyatdan keçmiş və onlardan 62 nəfər gənc biznes təlimləri üçün seçilmişdir. Beynəlxalq Əmək Təşkilatından təlimçilər həmin gənclərə biznes ideyanın müəyyənləşməsi, marketinq, satış və tədarük planı, maya dəyəri, nağd pul dövriyyəsi və s. mövzularda təlimlər keçmişlər. Gənclər bu təlimlər nəticəsində biznes planlarını tamamlayaraq təhvil vermişlər. Növbəti mərhələdə mütəxəssislər tərəfindən biznes planları qiymətləndiriləcək və onlardan içərisində innovativ ideyaların olunduğu, kənd təsərrrüfatı sahəsində daha vacib görülənləri qrup şəklində müraciətlərə və s. üstünlük meyarlarına görə seçiləcək. Daha sonra biznes planları üçün mentorlar təyin ediləcək və gənclərin maliyyəyə çıxış imkanları asanlaşdırılacaq. Layihə çərçivəsində gənclərə aşağı faizlərlə aqrar kreditlərin verilməsi gözlənilir.

***Sərxan HACIYEV,***
***Balakən rayon Gənclər və İdman İdarəsinin baş məsləhətçisi***

● Gənclik və idman

## Təhsilə böyük önəm verilir

**Son illər Oğuzda təhsilin inkişafı sahəsində mühüm nailiyyətlər əldə edilməkdədir. Mürəkkəb relyefi, yağıntılı günlərin çox olması belə qarşıya qoyulan hədəflərə çatmaqda maneçilik törətmir. Rayon təhsil şöbəsindən əldə olunan məlumatda bildirildi ki, burada təhsilin maddi-texniki bazasının gücləndirilməsi, infrastrukturun müasir tələblərə uyğun qurulması, təhsilin məzmununun yeniləşdirilməsi istiqamətində əməli addımlar atılmaqdadır.**



Bunun da sayəsində tədrisin keyfiyyətinin yüksəldilməsi, pedaqoji kadrlarla təminatının yaxşılaşdırılması, təhsil müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları ilə təmin edilməsi, istedadlı uşaqların inkişafı istiqamətlərində əhəmiyyətli uğurlar qazanılıb.

Cari dərs ilində Oğuz rayonunda 34 ümumtəhsil məktəbi, o cümlədən 28 tam orta, 4 ümumi orta və 2 ibtidai məktəb fəaliyyət göstərib və 417 sinif komplektində 5793 nəfər şagird təhsilə cəlb olunub.

Rayonun ümumtəhsil məktəblərində ədəbi yaradıcılığa meyil göstərən şagirdlərin bədii yazılarına da ciddi diqqət yetirilir. Artıq üçüncü ildir ki, Oğuz məktəbliləri "Əsgərə məktub" devizi altında yazıların vaxtaşırı olaraq hərbi hissələrə göndərilməsini təşkil edir.

"Ədəbiyyat biliciləri" respublika müsabiqəsinin rayon mərhələsinin qalibi, Oğuz şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Minayə İslamova final mərhələsində də fəal iştirak edib.

"Məktəblilərin Respublika Yaradıcılıq Festivalı" çərçivəsində bu ilin mart ayında "Məktəblilərin dram, təsviri və dekorativ-tətbiqi sənət respublika müsabiqəsi"nin Şəki şəhərində keçirilən zona mərhələsində Kərimli kənd tam orta məktəbi şagirdlərinin yaradıcılıq işi birinci yeri tutub.

Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi ilə bağlı cari ilin aprel ayında dörd nominasıya üzrə (şeir, mahnı, səhnəciklər və rəsm) müsabiqə də keçirilib.

"Şahin" hərbi-idman oyununun rayon mərhələsi təşkil olunub və zona yarışlarında iştirak etmək hüququ qazanmış Oğuz şəhər 3 nömrəli məktəb-liseyin komandası Şəki şəhərində keçirilən zona yarışında IV yerə sahiblənib.

Oğuz Rayon Təhsil Şöbəsinin tədbirlər planına uyğun olaraq fənn olimpiadalarının rayon mərhələsində 400 nəfər istedadlı şagird iştirak edib və zona mərhələsində qalib gələn 10 şagird Bakı şəhərində keçiriləcək final mərhələsində iştirak etmək hüququ qazanıb.

Prezident İlham Əliyevin tövsiyəsinə əsasən "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyanın növbəti mərhələsi çərçivəsində təhsildə fərqlənən 40 nəfər Oğuz məktəblisindən ibarət qrup cari ilin martında Gəncə-Şəmkir-Göygöl-Tovuz-Qazax-Ağstafa marşrutu üzrə respublikamızın qərb bölgəsinə səfər ediblər.

Respublikanın şahmat fənni tədris edilən pilot məktəbləri Oğuzda da fəaliyyət göstərir. Həmin məktəbin şagirdləri arasında bu ilin mart ayında keçirilən şahmat festivalının zona mərhələsində qalib gələn şəhər 3 nömrəli tam orta məktəbin şagirdi İbrahim Səfərəliyev və Bucaq kənd tam orta məktəbinin şagirdi Elşad Məmmədov öz yaş qruplarında festivalın final mərhələsində iştirak etmək hüququ qazanıb.

Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Milli Olimpiya Komitəsi, Azərbaycan Məktəb İdmanları Federasiyasının birgə təşkilatçılığı ilə mart ayında Göyçay şəhərində keçirilən "Məktəblilər arasında respublika çempionatı"nın proqramına daxil olan şahmat üzrə zona yarışında məktəblilərdən ibarət Oğuz komandası keçirdikləri 11 oyunun hamısında qalib gələrək respublika birinciliyinin final mərhələsinə vəsiqə qazanıb.

Bu ilin aprelində Şəki şəhərində keçirilmiş "Sərhəd" hərbi-idman oyununun zona mərhələsində iştirak edən Muxas kənd tam orta məktəbinin "Çənlibel" adlı komandası 1-ci yerə layiq görülərək respublika mərhələsinə vəsiqə əldə edib. Müasir təlim metodlarının tətbiqi, qabaqcıl iş təcrübəsinin öyrənilməsi və yayılması, məktəblərdə psixoloji xidmətin keyfiyyətinin yüksəldilməsi, məktəbin valideynlərlə və ictimaiyyətlə əlaqəsinin gücləndirilməsi məsələləri də diqqət mərkəzində saxlanılmaqdadır.

Oğuz Rayon Gənclər və İdman İdarəsi də il ərzində uşaq, yeniyetmə və gənclərin ideya-siyasi, vətənpərvərlik, hüquqi, mənəvi, dini, estetik tərbiyəsi və təhsili, sosial müdafiəsi, fiziki inkişafı məsələlərini əhatə edən ümumi və ayrı-ayrı sahələr üzrə konkret iş planları hazırlayaraq bunlar əsasında fəaliyyət göstərir.

"Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq gənc nəslin vətənə məhəbbəti, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi dəyərlərinə hörmət ruhunda tərbiyə olunması diqqətdə saxlanılır. Qeyd olunanlarla paralel gənclərin hərbi vətənpərvərlik tərbiyəsi işinin gücləndirilməsi, gənclər arasında hüquq pozuntularının, narkomaniyanın və digər zərərli vərdişlərin profilaktikası sahəsində tədbirlərin həyata keçirilməsi də davamlı xarakter daşıyır. İstedadlı gənclərin aşkar edilməsi, gənclərin sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, peşə hazırlığının yüksəldilməsi və məşğulluğunun təmin edilməsi məqsədi ilə tədbirlərin həyata keçirilməsi, eyni zamanda kütləvi bədən tərbiyəsinin və idmanın inkişafına, ölkənin ictimai-siyasi həyatında gənclərin fəal iştirakına xidmət edir.

Təsadüfi deyil ki, idarə tərəfindən 2019-cu ilin I rübü ərzində gənclərlə iş, təşkilati məsələlər və idman sahəsi üzrə 29 tədbir həyata keçirilib və bu tədbirlərdə 2370 nəfərə yaxın uşaq, yeniyetmə və gənc iştirak edib.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

## II Avropa Oyunları

# “Minsk-2019”: 5 qızıl, 10 gümüş, 13 bürünc medal

## II Avropa Oyunları Azərbaycan idmançılarının növbəti zəfər meydanı oldu





*Əvvəli 1-ci səh.*

### Bir gümüş, dörd bürünc

Cüdoçularımız da II Avropa Oyunlarını uğurla başa vurublar. “Minsk-2019”da Azərbaycan yığmasının bayraqdarı olan Rüstəm Orucov mübarizəyə 1/16 final mərhələsindən başlayıb. İlk görüşündə monakolu Sedrik Bessini 57 saniyəyə ippona salan cüdoçumuzun 1/8 finaldakı rəqibi Rio Olimpiadasının qızıl mükafatçısı, italyan Fabio Bazile olub. Titullu rəqibinə də qalib gələn cüdoçumuz adını 1/4 finala yazdırıb. Bu mərhələdə erməni idmançısı Ferdinand Karapetyana vaza-ari xalı ilə qalib gələn idmançımız yarımfinala yüksəlib. Onun final yolunda rəqibi yunanıstanlı Georgios Azoidis olub. Görüşü ipponla başa vuran Rüstəm finala çıxıb. Həlledici mərhələdə isveçli Tommi Makiasa uduzan idmançımız II Avropa Oyunlarını gümüş medalla başa vurub.

Eyni çəkidə yarışan Hidayət Heydərov 1/16 finalda macarıstanlı Mikloş Unqvarini vaza-ari xalı, 1/8 finalda isə israilli Din Yaakov Gemeri ipponla məğlub edərək növbəti mərhələyə yüksəlib. 1/4 finalda yunanıstanlı Georgios Azoidisə ipponla uduzan Hidayət bürünc medal uğrunda təsəlliverici görüşdə ermənistanlı Ferdinand Karapetyanla qarşılaşıb. Rəqibinə ipponla qalib gələn cüdoçumuz bürünc medal uğrunda görüşə vəsiqə qazanıb. Bu mərhələdə gürcüstanlı Laşa Şavdatuaşviliyə ipponla qalib gələn Hidayət “Minsk-2019”u bürünc medalla başa vurub.

90 kq çəki dərəcəsində yarışan Məmmədəli Mehdiyev 1/16 final mərhələsində Belarus təmsilçisi Yeqor Voropayevə qalib gələrək adını 1/8 finala yazdırıb. Bu mərhələdə fransalı Aurelien Disse ilə görüşən cüdoçumuz qələbə qazanaraq 1/4 finala yüksəlib. Növbəti mərhələdə türkiyəli Mikail Özerlərə uduzan Məmmədəli təsəlliverici görüşdə isveçrəli Ciril Qrossklaus ilə qarşılaşıb. Rəqibini məğlub edən cüdoçumuz mübarizəni bürünc medal uğrunda davam etdirib. Hollandiyalı rəqibi Noel Vant End ilə üz-üzə gələn idmançımız tatamini qələbə ilə tərk edərək oyunların bürünc mükafatçısı olub.

100 kq çəkidə yarışan Elmar Qasımov 1/16 finalda ukraynalı Anton Savitskiyə vaza-ari fəndi ilə qalib gələrək 1/8 finala yüksəlib. İdmançımız bu mərhələdə estoniyalı Qriqori Minaşkini ipponla məğlubiyyətə uğradaraq adını 1/4 finala yazdırıb. O, yarımfinala gedən yolda fransalı Siril Mane ilə görüşdə uduzub. Cüdoçumuz təsəlliverici görüşdə monteneqrolu Danilo Pantiçi mübarizədən kənarlaşdıraraq bürünc medal uğrunda qarşılaşmada Belarus təmsilçisi Daniel Mukete ilə üz-üzə gəlib. Maraqlı və gərgin keçən görüşdən qalib ayrılan Elmar “Minsk-2019”u bürünc medalla başa vurub.

Qadınların mübarizəsində +78 kq çəkidə İrina Kindzerska 1/8 finalda almaniyalı Yasmin Kuelbsi, 1/4 finalda isə britaniyalı Sara Adlinqtonu ipponla məğlub edərək yarımfinala adlayıb. Finala gedən yolda Belarus təmsilçisi Marina Slutskaya ilə qarşılaşan təmsilçimiz uduzaraq 3-cü yer uğrunda döyüşdə qüvvəsini sınayıb. Ukraynalı Qalina Tarasova ilə üz-üzə gələn təmsilçimiz qalib gələrək yarışın bürünc mükafatını qazanıb.

Beləliklə, cüdoçular II Avropa Oyunlarını bir gümüş və dörd bürünc medalla başa vurublar.








### Pəhləvanlarımız etimadı doğrultdular

Bütün idmansevərlərin böyük maraqla və həyəcanla medallar gözlədiyi idman növləri sırasında güləş xüsusi yer tuturdu. Bundan əvvəlki yarışlarda qazandıqları nəticələrlə xalqımızı sevindirən pəhləvanlarımız bu dəfə də etimadı doğrultdular. Azərbaycan güləşçiləri “Minsk-2019”u ümumilikdə 10 medalla başa vurdular. Onlardan 3-ü qızıl, 3-ü gümüş, 4-ü bürünc olub.

Əvvəlcə mübarizəyə sərbəst güləşçilər qoşulublar. 57 kq çəki dərəcəsində çıxış edən Mahir Əmiraslanov mübarizəyə boqarıstanlı Georgi Vangelova qarşı görüşlə başlayıb. Gərgin mübarizədən 6:5 hesablı qələbə ilə ayrılan pəhləvanımızın 1/4 finaldakı rəqibi Vladimir Yeqorov (Şimali Makedoniya) olub. Təmsilçimiz qələbə seriyasını davam etdirərək rəqibini 4:0 hesabı ilə məğlub edib və yarımfinala vəsiqə qazanıb. Finala gedən yolda Mahirin rəqibi Rusiya təmsilçisi Zavur Uğuyev olub. Rəqibinə qalib gələn Mahir çempionluq üçün həlledici görüşdə serbiyalı Stevan Miçiçi də məğlub edərək qızıl medala yiyələnib.

Yığmamızın liderlərindən biri - Hacı Əliyev (65 kq) 1/8 finalda erməni Volodya Franqulyana göz açmağa imkan verməyib - 6:0. 1/4 finalda belaruslu George Koliyevlə güləşdə də idmançımız əzmkarlıq nümayiş etdirərək 7:5 hesablı qələbə qazanıb. Hacı yarımfinalda Ukraynanı təmsil edən Xor Ohanesyanla qarşılaşıb. Gərgin keçən görüşdən qalib ayrılan pəhləvanımız finala yüksəlib.

Qızıl medalın taleyi gürcüstanlı Vladimir Xinceqaşvili ilə görüşdə həll olunub. Görüş 10:2 hesabı ilə pəhləvanımızın xeyrinə başa çatıb. Rio Olimpiadasının qalibi olan rəqibini asanlıqla məğlub edən Hacı ölkəmizin hesabına 2-ci qızıl medalı yazdırıb.

97 kq çəkidə yarışan Nurməhəmməd Hacıyevin ilk rəqibi polşalı Radoslav Baran idi. Rəqibini 8:0 hesabı ilə üstələyən idmançımız 1/4 finalda Elizbar Odikadze ilə qarşılaşıb. Gürcüstan təmsilçisi də Nurməhəmmədlə bacarmayıb. Hacıyev bu dəfə 7:3 hesablı qalibiyyətlə yarımfinala yüksəlib. Onun final yolunda rəqibi Murazi Mçedlidze (Ukrayna) olub. Rəqibinə 7:0 hesabı ilə qalib gələn Hacıyev qızıl medal uğrunda mübarizədə rusiyalı Abdulraşid Sadullayevlə qarşılaşmaya zədə ucbatından çıxmadığı üçün gümüş medalla kifayətlənib.

74 kq çəki dərəcəsində yarışan Hacımurad Hacıyevin 1/4 final yolunu Türkiyə güləşçisi Soner Demirtaş kəsib - 3:4. Rəqibi finala qədər yoluna davam etdiyi üçün Hacımurad təsəlliverici görüşlərə qatılmaq hüququ qazanıb. Onun “bürünc” yolunda ilk rəqibi yunanıstanlı Kirillos Binenpaum olub. Rəqibi üzərində inamlı qələbə qazanan (10:3) pəhləvanımız mübarizəni davam etdirərək üçüncü yer uğrunda görüşdə ukraynalı Vasil Mixaylovu asanlıqla məğlub edib və bürünc medalın sahibi olub.

125 kq çəki dərəcəsində yarışan Camaləddin Məhəmmədov 1/8 finalda Belarus güləşçisi Vitali Pyasnyakdan üstün olub - 6:0. 1/4 finalda macarıstanlı Daniel Ligetini çətinliklə mübarizədən kənarlaşdıran (6:5) Camaləddin yarımfinalda gürcüstanlı Givi Matkaraşvili ilə üz-üzə gəlib. Rəqibinə 2:4 hesabı ilə məğlub olan idmançımız bürünc medal uğrunda Rares Çintoana qalib gələrək II Avropa Oyunlarını 3-cü yerdə başa vurub.

Qadınların mübarizəsində 50 kq çəkidə yarışan komandamızın lideri Mariya Stadnik yarışa 1/4 final mərhələsindən başlayıb. Polşalı Anna Lukasyakla güləşən təmsilçimiz 10:0 hesabı ilə qələbə qazanaraq yarımfinala yüksəlib. Finala gedən yolda Evin Dəmirhana (Türkiyə) qalib gələn Mariya həlledici görüşdə ukraynalı Oksana Livaçı da məğlub edərək II Avropa Oyunlarının qalib olub.

62 kq çəki dərəcəsində yarışan Elmira Qəmbərova 1/8 finalda almaniyalı Luzi Mankeni, 1/4 finalda polşalı Katarzina Madrovskanı, yarımfinalda rumıniyalı Krişta İnçzeni mübarizədən kənarlaşdıraraq finala yüksəlib. Çempionluq uğrunda ukraynalı Yuliya Tkaçla qarşılaşmada uduzan Elmira II Avropa Oyunlarını gümüş medalla başa vurub.

57 kq çəkidəki təmsilçimiz Alyona Kolesnik oyunlara 1/8 finaldan başlayıb. Macarıstanlı Ramona Qalambos ilə üz-üzə gələn idmançımız 10:0 hesabı ilə qalib gəlsə də, 1/4 finalda bolqarıstanlı Mimi Xristova ilə bacarmayıb (0:6). Amma rəqibi finala yüksəldiyi üçün Alyonaya bürünc medal şansı yaranıb. İlk olaraq təsəlliverici görüşdə italiyalı Franseska İndelikatoyla güləşən idmançımız 12:1 hesabı ilə qalib gələrək bürünc medal uğrunda türkiyəli Bediha Günlə qarşılaşmadan qalib ayırlaraq 3-cü yeri tutub.

Yunan-Roma güləşçilərinin mübarizəsində isə İslam Abbasov (87 kq) gümüş, Sabah Şəriəti (130 kq) bürünc medala layiq görülüblər.

### Karatedə 5 medal

“Minsk-2019”da karateçilərimiz də onlara göstərilən etimadı layiqincə doğrultmağa çalışdılar. Ölkəmizə bu idman növündə qızıl medalı +84 kq çəki dərəcəsində kumite yarışında Asiman Qurbanlı qazandırıb. O, A qrupunda Tirol Darnel Lardi (Hollandiya), Conatan Horne (Almaniya) və Alparslan Yamanoğlu (Türkiyə) ilə yarışıb. Hollandiya və Türkiyədən olan rəqiblərini müvafiq olaraq 2:0 və 1:0 hesabı ilə məğlub edən Asiman Almaniya idmançısı ilə heç-heçə edib. Bu nəticə ilə karateçimiz qrup birincisi kimi yarımfinala adlayıb. Gürcüstanlı Qoqita Arkaniyaya qalib gələn təmsilçimiz finalda xorvatiyalı Ancelo Kvesiçi məğlub edərək “Minsk-2019”un qızıl medalını qazanıb.

Kişilərin kata yarışında təmsilçimiz Roman Heydərov B qrupunda Türkiyə, İtaliya və Andorra idmançıları ilə yarışda 24.63 xal toplayıb 3-cü yeri tutaraq növbəti mərhələyə adlayıb. Lakin növbəti mərhələdə 25.40 xallıq göstərici final üçün kifayət etməyib. Heydərov bürünc medal uğrunda almaniyalı İlya Smorqunerlə mübarizədən qalib ayrılaraq “Minsk-2019”u 3-cü yerdə başa vurub.

Qadınların kumite yarışlarında 68 kq çəkidə mübarizə aparan İrina Zaretskanın A qrupunda rəqibləri Silviya Semeraro (İtaliya), Alize Aqier (Fransa) və Miroslava Kopunova (Slovakiya) olub. İtaliyalı ilə bərabərə qalan (0:0) təmsilçimiz digər iki rəqibinə müvafiq olaraq 7:2 və 6:0 hesab ilə qalib gəlib və qrup birincisi kimi yarımfinala yüksəlib. Finala gedən yolda ukraynalı Qalina Melnikə 1:0 hesabı ilə qalib gələn təmsilçimiz həlledici mərhələdə italiyalı Silviya Semeraro ilə qarşılaşıb. Görüşdə 1:5 hesabı ilə uduzan Zaretska gümüş medalla kifayətlənib.

60 kq çəki dərəcəsində yarışan Firdovsi Fərzəliyev B qrupunun ilk görüşündə İlya Bulatova (Belarus) aman verməyib. Emil Pavlova (Makedoniya) çətinliklə qalib gələn Fərzəliyev Ancelo Kreszento (İtaliya) ilə bərabərə qalıb. Bununla idmançımız qrup birincisi kimi yarımfinala adlayıb. Onun final yolundakı rəqibi rusiyalı Yevgeni Plaxutin olub. Bu görüşü də qalib başa vuraraq finala yüksələn Fərzəliyev həlledici mərhələdə latviyalı Kalvis Kalninsə uduzaraq “Minsk-2019”u gümüş medalla başa vurub.

75 kq çəki dərəcəsində mübarizə aparan Rafael Ağayev B qrupunda Co Kellavey (Böyük Britaniya) və Ərman Ərdəmiri (Türkiyə) müvafiq olaraq 3:2 və 1:0 hesabı ilə üstələyib. Qabor Harspataki (Macarıstan) ilə heç-heçə edən Ağayev qrup birincisi olub.

Həmyerlimiz yarımfinalda Estoniya idmançısı Pavel Artamanovdan güclü olub. Finalda Stanislav Xoruna (Ukrayna) ilə qarşılaşmada uduzan Rafael II Avropa Oyunlarında gümüş medalla kifayətlənib.

Beləliklə, karateçilərimiz II Avropa Oyunlarını 5 medalla (1 qızıl, 3 gümüş, 1 bürünc ) başa vurublar.

### Boksçumuz Avropa Oyunlarının qalibi oldu

Boksda da idmançılarımız ölkəmizin hesabına 2 medal (1 qızıl və 1 bürünc) medal yazdırıblar. 81 kq çəki dərəcəsində mübarizə aparan təmsilçimiz Alfonso Dominges müvafiq olaraq Ştefan Xrekul (Ukrayna), Mixail Dauqalivets (Belarus), Ziad əl-Mohor (Belçika) və Simeone Fiorini (İtaliya) məğlub edərək finala yüksəlib. Həlledici qarşılaşmada Benjamin Vittakerə (Böyük Britaniya) 3:2 hesab ilə qalib gələn boksçumuz II Avropa Oyunlarının qalibi olub.

Azərbaycanı 69 kq çəki dərəcəsində təmsil edən Lorentso Sotomayor 1/8 finalda Adem Fetahoviçi (Bosniya və Herseqovina), 1/4 finalda kosovolı Patriot Behramini mübarizədən kənarlaşdırıb. Finala çıxmaq üçün böyük britaniyalı Pet Makkormakla qarşılaşan təmsilçimiz bu döyüşdə uduzaraq “Minsk-2019”u bürünc medalla başa vurub,

### Samboçular “Minsk-2019”u 3 medalla başa vurdular

II Avropa Oyunlarında sambo yarışlarında ölkəmiz 3 medal qazanıb (bir gümüş, iki bürünc).

52 kq çəki dərəcəsində çıxış edən Ağasif Səmədov oyunları gümüş medalla başa vurub.

Bürünc medalları komandamızın aktivinə Mehman Xəlilov (57 kq) və Emil Həsənov (68 kq) yazdırıblar. Mehman Xəlilov 1/4 finalda belaruslu Vladislav Burdza uduzub. Lakin bu çəki dərəcəsində yeddi samboçunun mübarizə aparması idmançımızın təsəlliverici qarşılaşmaya qatılmadan bürünc medal uğrunda görüşdə iştirakına imkanı yaradıb. O, bürünc medal uğrunda görüşdə Ermənistan samboçusu Maksim Manukyanı 9:1 hesabı ilə məğlubiyyətə uğradıb.

1/4 finalda rumıniyalı Laslo Jolt-Sokeyə qalib gələn Emil Həsənov isə yarımfinalda gürcüstanlı Mindia Liluaşviliyə məğlub olub. Samboçumuz bürünc medal uğrunda qarşılaşmada Bolqarıstan təmsilçisi Martin İvanova qalib gələrək oyunları 3-cü yerdə başa vurub.

Təbii ki, “Minsk-2019”da qazanılmış bu möhtəşəm qələbələr hansısa təsadüfün nəticəsi deyil. Bu zəfərin təməlində dövlətin bu sahədə yeritdiyi siyasət, bədən tərbiyəsi və idmanın inkişafı naminə görülən ardıcıl tədbirlər, mütəxəssis və idmançıların peşəkarlığı və məsuliyyəti durur.

Təbriklər, Azərbaycan!

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Minskdə II Avropa Oyunlarının bağlanış mərasimi keçirilib

İyunun 30-da Belarusun paytaxtı Minskdə II Avropa Oyunlarının bağlanış mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, “Dinamo Arena”da keçirilən bağlanış mərasimində Belarus, Rusiya, Tacikistan prezidentləri ilə yanaşı, Beynəlxalq və Avropa Olimpiya komitələrinin prezidentləri iştirak ediblər. Bundan başqa, bir sıra ölkələrin nazirləri, o cümlədən Azərbaycanın Gənclər və İdman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə də iştirak ediblər.

Bağlanış mərasimi Belarusun Dövlət himninin səslənməsi ilə başlayıb. Sonra iştirakçı dövlətlərin bayraqları gətirilib. Azərbaycanın keçidi zamanı bayraqdar II Avropa Oyunlarının qızıl mükafatçısı karateçi Asiman Qurbanlı olub. “Aura” qrupu ifasından sonra idmançıların paradı keçirilib. Daha sonra müxtəlif rəqs kompozisiyaları nümayiş etdirilib və Belarusun simvolu olan Zubr nəhəng ekranda canlandırılıb. Yerli ifaçılar mahnılar ifa ediblər. Bu zaman idmanda vacib amillər olan yarışdan əvvəl, ikinci nəfəs, məşqçi, hörmət, yeni çağırış, könüllülər və qələbəni əks etdirən anlar nümayiş olunub. Daha sonra Avropa Olimpiya Komitəsinin bayrağı endirilib.

Bundan sonra Belarus Prezidenti Aleksandr Lukaşenko çıxış edib. II Avropa Oyunlarını dostluq və birlik bayramı adlandıran A.Lukaşenko bildirib ki, Avropanın milyonlarla insanının bir ailədə birləşdiyini gördük. Onun sözlərinə görə, Avropa Oyunlarında belaruslular böyük tədbirlərin keçirilməsinə necə qadir olduğunu göstərdi, öz qapılarını Avropanın üzünə açdı. 10 gün ərzində Minsk arenalarında isti münasibətlər oldu. Bu da dünyada sülhün davam etdirilməsi üçün vacib idi. A.Lukaşenko çıxışında idman yarışlarını operativ işıqlandıran jurnalistlərə, ədalətli olan hakimlərə, öz ölkələrini layiqincə təmsil edən idmançılara, ən böyük əziyyəti olan könüllülərə, azarkeşlərə təşəkkürünü bildirib. Qeyd edib ki, könüllülər bu müddət ərzində Minskdə qonaqlara, idmançılara köməkliyini əsirgəməyib. Onun sözlərinə görə, Prezident Administrasiyasına könüllülərin məlumat bankının yaradılması barədə tapşırıq verib.

“Ən kədərli andır, biz II Avropa Oyunlarını bağlayırıq. Ancaq qoy bu Avropa Oyunlarının ömrü uzun olsun”, - deyə A.Lukaşenko çıxışını yekunlaşdırıb.

Sonra çıxış edən Avropa Olimpiya Komitəsinin prezidenti Yanes Kosyançiç bildirib ki, 10 gün ərzində möhtəşəm yarışın şahidi olub. Könüllülər həqiqətən böyük işlər gördü. Dopinq məsələsinə ciddi nəzarət olundu. Y.Kosyançiç II Avropa Oyunlarını bağlı elan etdikdən sonra söz musiqiyə verilib.

Sonda II Avropa Oyunlarının məşəli söndürülüb.

Qeyd edək ki, iyunun 21-də start götürən II Avropa Oyunlarında qitənin 50 ölkəsindən 4 mindən çox atlet idmanın 15 növü üzrə 200 dəst medal uğrunda mübarizə aparıb.



Azərbaycan “Minsk 2019”da 82 idmançı ilə təmsil olunub. Atletlərimiz idmanın 11 növü üzrə medallar uğrunda yarışıb. Azərbaycan idmançıları bu mötəbər yarışda 28 (5-10-13) medal qazanaraq onuncu pillədə qərarlaşıb. II Avropa Oyunlarında medalların sayına görə birinci yeri dörd il əvvəl olduğu kimi Rusiya komandası tutub. Rusiyalı atletlər ümumilikdə 109, o cümlədən 44 qızıl, 23 gümüş və 22 bürünc medal qazanıblar. Ev sahibi Belarus millisi 69 (24-16-29) medalla ikinci olub. Üçüncü yeri isə aktivində 51 medal (16-17-18) olan Ukrayna tutub.

Xatırladaq ki, tarixdə ilk Avropa Oyunları 2015-ci il iyunun 12-28-də Bakıda keçirilib. Azərbaycan bu mötəbər idman yarışının təşkili üçün qalan 30 aylıq qısa müddətdə hazırlıq prosesini yüksək səviyyədə başa vuraraq Avropa Oyunlarının standartlarını müəyyənləşdirib. “Bakı 2015”də uğurla çıxış edən Azərbaycan millisi komanda hesabında ikinci yerdə qərarlaşıb. İdmançılarımız Oyunlarda 56, o cümlədən 21 qızıl, 15 gümüş və 20 bürünc medal qazanıblar.

III Avropa Oyunları 2023-cü ildə Polşanın Krakov şəhərində keçiriləcək.

# 31 DEKABR 2018-Cİ İL TARİXİNƏ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA BİRLƏŞDİRİLMİŞ (KONSOLİDƏ EDİLMİŞ) HESABAT

(Azərbaycan manatı ilə)

| | Qeydlər | 31 dekabr 2018-ci il | 31 dekabr 2017-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| *Uzunmüddətli aktivlər* | | | |
| Qeyri-maddi aktivlər | | 92 479 | 41 084 |
| Torpaq, tikili və avadanlıqlar | 10 | 158 165 104 | 157 149 379 |
| İnvestisiya mülkiyyəti | | | |
| Uzunmüddətli debitor borcları | | | |
| Sair uzunmüddətli maliyyə aktivləri | | | |
| Sair uzunmüddətli aktivləri | | | |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **158 257 583** | **157 190 463** |
| *Qısamüddətli aktivlər* | | | |
| Ehtiyatlar | 11 | 3 339 549 | 4 115 472 |
| Qısamüddətli debitor borcları | 12 | 10 322 638 | 11 292 090 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 13 | 8 873 991 | 4 806 111 |
| Sair qısamüddətli aktivləri | 14 | 742 015 | 4 883 373 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **23 278 193** | **25 097 046** |
| **CƏMİ AKTİVLƏR** | | **181 535 776** | **182 287 509** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| *Kapital* | | | |
| Nizamnamə kapitalı | 15 | 136 684 980 | 136 684 980 |
| Kapital ehtiyatları | 15 | 88 678 123 | 83 131 957 |
| Bölüşdürülməmiş mənfəət/(Ödənilməmiş zərər) | | (68 148 571) | (136 107 797) |
| *Cəmi kapital* | | **157 214 532** | **83 709 140** |
| *Uzunmüddətli öhdəliklər* | | | |
| Uzunmüddətli faiz xərci yaradan öhdəliklər | 16 | 9 721 752 | 10 936 962 |
| Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| Təxirə salınmış vergi öhdəliyi | 9 | | |
| Uzunmüddətli kreditor borcları | | | |
| Sair uzunmüddətli öhdəliklər | | | |
| *Cəmi uzunmüddətli öhdəliklər* | | 9 721 752 | 10 936 962 |
| *Qısamüddətli öhdəliklər* | | | |
| Qısamüddətli faiz xərci yaradan öhdəliklər | 16 | 1 215 210 | 1 215 210 |
| Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 18 | 361 503 | 948 763 |
| Qısamüddətli kreditor borcları | 18 | 8 733 905 | 85 222 352 |
| Sair qısamüddətli öhdəliklər | 19 | 4 288 874 | 255 081 |
| *Cəmi qısamüddətli öhdəliklər* | | 14 599 492 | 87 641 406 |
| CƏMİ ÖHDƏLİKLƏR | | 24 321 244 | 98 578 369 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **181 535 776** | **182 287 509** |

**MÜSTƏQİL AUDİTOR RƏYİ № 004**

**“AZƏRİSTİLİKTƏCHİZAT” Açıq Səhmdar Cəmiyyətin Səhmdarı və İdarə Heyətinə:**

Mən “AZƏRİSTİLİKTƏCHİZAT” Açıq Səhmdar Cəmiyyəti və onun törəmə müəssisələrinin 31 dekabr 2018-ci il tarixinə olan maliyyə vəziyyəti haqqında birləşdirilmiş (konsolidə edilmiş) hesabatı və həmin tarixə bitən il üzrə mənfəət və zərər və məcmu mənfəət, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişikliklər haqqında birləşdirilmiş (konsolidə edilmiş) hesabatları, habelə mühüm mühasibat uçotu siyasətlərinin xülasəsi və digər izahedici məlumatları özündə əks etdirən əlavə olunmuş birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının auditini apardım.

***Rəhbərliyin birləşdirilmiş (birləşdirilmiş (konsolidə edilmiş)) maliyyə hesabatları ilə bağlı məsuliyyəti***

Rəhbərlik Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına müvafiq olaraq birləşdirilmiş (konsolidə edilmiş) bu maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi, eləcə də saxtakarlıq, yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq mühüm təhriflərin olmadığı birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin qənaətinə görə zəruri sayılan daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

***Auditorun məsuliyyəti***

Mənim məsuliyyətim apardığım auditə əsasən birləşdirilmiş (konsolidə edilmiş) bu maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir.

Mən auditi Beynəlxalq Audit Standartlarına müvafiq olaraq həyata keçirdim. Bu standartlar məndən etik tələblərə riayət etməyimi, eləcə də birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarında mühüm təhriflərin olmadığına kifayət qədər əminliyin əldə edilməsi məqsədi ilə auditi planlaşdırmağımı və həyata keçirməyimi tələb edir.

Audit zamanı birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarındakı məbləğ və açıqlamalara dair audit sübutlarının əldə olunması ilə bağlı prosedurlar yerinə yetirilir. Prosedurlar auditorun mühakiməsi, o cümlədən birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarında saxtakarlıq, yaxud səhv nəticəsində baş verməsindən asılı olmayaraq mühüm təhriflər ilə bağlı risklərin qiymətləndirilməsindən asılı olaraq seçilir. Belə risk qiymətləndirmələrini həyata keçirərkən auditor şəraitə uyğun olaraq audit prosedurlarının planlaşdırılması məqsədilə müəssisənin daxili nəzarət sistemini, həmin sistemin effektivliyi barədə rəy bildirmək üçün deyil, müəssisə tərəfindən birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının düzgün hazırlanması və təqdim edilməsi ilə bağlı fikir formalaşdırır. Auditə, həmçinin, rəhbərlik tərəfindən tətbiq edilən mühasibat uçotu qaydalarının müvafiqliyinin və irəli sürülmüş mühasibat hesablamalarının əsaslı olduğunun qiymətləndirilməsi, habelə birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

Hesab edirəm ki, audit rəyimi bildirmək üçün əsas verən kifayət qədər və uyğun audit sübutu əldə etmişəm.

**Rəy**

Fikirimcə, birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından ASC-nin 31 dekabr 2018-ci il tarixinə olan konsolidə olunmuş maliyyə vəziyyətini və onun həmin tarixə bitən il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına müvafiq olaraq düzgün əks etdirir.

**Sərbəst auditor**
**Qarayev Vüsal Məmmədrəsul oğlu**

**Azərbaycan Respublikası, Bakı şəhəri,**
**12 iyun 2019-cu il**


Təkrar

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Gəncə Şəhər Pensiyaçıların Ərazi Sosial Xidmət Mərkəzində yardımçı binaların tikintisi və əsaslı təmiri işlərinin satın alınması ilə əlaqədar

## *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (Əlaqələndirici şəxs: Tender komissiyası (012) 596-44-09) ünvanından ala bilərlər.

**İştirak haqqı: 1000.00 (bir min) manat**

**Satın alan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT: CTREAZ22**
**H/hesabı: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifi təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **19 iyul 2019-cu il saat 17:00-dək,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **30 iyul 2019-cu il saat 17:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85** ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **31 iyul 2019-cu il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin “DOST İş Mərkəzi” MMC 2019-cu il üçün kotirovka sorğusu elan edir**

Aşağıda göstərilən xidmətlər üzrə qiymətlərin elan olunmasına dəvət edilirsiniz:

- 1C mühasibatlıq proqramı (büdcə təşkilatları üçün).

Kotirovka sorğusunda iştirak etmək üçün tələb olunan sənədlər 04 iyul 2019-cu il saat 17:00-dək qəbul olunur.

Tələb olunan sənədlər:

- nizamnamənin surəti (notarial qaydada təsdiq olunmuş);
- kommersiya hüquqi şəxsinin dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti (notarial qaydada təsdiq olunmuş);
- kommersiya hüquqi şəxsinin rekvizitləri (möhürlənmiş və imzalanmış şəkildə);
- vergi və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlar tərəfindən verilmiş arayışlar;
- vergi uçotu haqqında arayış (ƏDV ödəyicisi olmayan təşkilatlar üçün).

Ünvan: AZ1005 Bakı şəhəri, Səbail rayonu, H.Z.Tağıyev küç.,h ev 13.

Əlaqələndirici şəxs: Firudin Məmməliyev.Telefon: (+99412) 497-41-66.

***Tender komissiyası***


# Moskvadakı “Azərbaycan” pavilyonu Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa olunur

Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisindəki (XTNS) “Azərbaycan” pavilyonunda Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa işləri aparılır.

AZƏRTAC xəbər verir ki, bərpa işləri binanın eksteryer və interyerini əhatə edir. Burada orijinal rənglər saxlanılmaqla, naxışlar, şəbəkə pəncərələr dəqiqliklə yenidən qurulur, pavilyonun zalları yenilənir.

Qeyd edək ki, əvvəllər SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi, 1992-2014-cü illərdə isə Ümumrusiya Sərgi Mərkəzi adlandırılan bu məkan dünyanın ən böyük sərgi komplekslərindəndir. XTNS-nin ərazisi Sovet dövründə yaradılan memarlıq abidələri ilə zəngin olub. “Ostankino” parkı ilə birləşdirildikdən sonra onun ümumi ərazisi 325 hektardan çoxdur.

XTNS-nin incilərindən olan “Azərbaycan” pavilyonu 1939-cu ildə tikilib. Layihənin müəllifləri olan memarlar Sadıq Dadaşov və Mikayıl Hüseynov II dərəcəli Stalin mükafatı ilə təltif olunublar. Pavilyon Azərbaycan milli motivləri ilə zəngindir. Bina düzbucaqlıdır, divarlar mərmərlə işlənib. Fasad Azərbaycan naxışları, qızılı rəngdə üzüm ornamentləri ilə, pavilyonun pəncərələri isə vitraj-şəbəkə ilə bəzədilib. Pavilyonun ekspozisiyası Azərbaycan SSR-in sənaye, heyvandarlıq, ipəkçilik, bitkiçilik, kənd təsərrüfatı, mədəniyyət, sənət və məişət sahələrində nailiyyətlərini əhatə edirdi.

2016-cı ildə pavilyon rəsmi olaraq Azərbaycana təhvil verilib və burada bərpa işlərinə başlanılıb.

Pavilyonda yeni sərgi mərkəzinin yaradılması nəzərdə tutulur.

Yenilənmiş pavilyonun konsepsiyasının əsas ideyası Azərbaycanın zəngin tarixə malik qədim, eyni zamanda sürətlə inkişaf edən bir dövlət olduğunu nümayiş etdirmək üzərində qurulub.

“Azərbaycan inciləri” sərgi zonasında qonaqlar Azərbaycanın xalçaçılıq ənənələri, zəngin musiqi tarixi ilə tanış ola bilərlər. Burada, eyni zamanda arxeoloji qazıntılar zamanı aşkar olunan və Azərbaycanın qədim tarixini əks etdirən eksponatlar, milli geyimlər, xalq sənəti nümunələri nümayiş etdiriləcək.

Pavilyonda, eyni zamanda müasir Azərbaycan, ümummilli lider Heydər Əliyev, Azərbaycanın tanınmış ziyalıları barədə müxtəlif materiallar, foto və videolarla tanışlıq mümkün olacaq.

Mühazirə və konfranslar, musiqi proqramları üçün müxtəlif zalların yaradılması, turizm zonasında Azərbaycanın turizm marşrutları barədə məlumatların təqdimatı nəzərdə tutulur.

“Ticarət evi” zonasında isə Azərbaycan istehsalı olan məhsullar təqdim ediləcək, eyni zamanda burada milli suvenirləri əldə etmək mümkün olacaq.

Pavilyonda, həmçinin Azərbaycanın tarixi və müasir həyatına, müxtəlif sahələrə dair kitablar da nümayiş olunacaq. Burada eyni zamanda, əyləncə zonalarının yaradılması nəzərdə tutulur.

# Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının tələbələri “Live Life” sərgisi çərçivəsində yay təcrübəsi keçəcəklər

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə təşkil edilmiş “Live Life” beynəlxalq sərgi layihəsi çərçivəsində Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının fərqlənmiş 30 tələbəsi iyulun 2-dən 6-dək Heydər Əliyev Mərkəzində yay təcrübəsi keçəcək.

AZƏRTAC xəbər verir ki, yay təcrübəsinin mövzusu “Live Life” sərgisinin ideyası ilə səsləşir və ətraf mühitin problemlərinə, təbiətin qorunmasına, incəsənətin bu sahədə roluna dair ictimaiyyətin maarifləndirilməsinə diqqət cəlb edilməsini nəzərdə tutur.

Yaradıcılıq layihəsi IDEA İctimai Birliyinin təşəbbüsü, Heydər Əliyev Mərkəzi və Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dəstəyi ilə keçirilir.

Yay təcrübəsində iştirak edən tələbələrə yaradıcılıq üçün zəruri olan baza dəstləri təqdim ediləcək.

İştirakçılardan hər biri 150 AZN məbləğində həvəsləndirici mükafat alacaq. Layihənin sonunda isə onların arasından üç qalib seçiləcək. Birinci yerin qalibi 500 AZN, ikinci və üçüncü yerləri tutanlar isə müvafiq olaraq 300 AZN və 200 AZN məbləğində pul mükafatları alacaqlar. Bütün iştirakçılara xatirə diplomları təqdim ediləcək.

Qeyd edək ki, “Live Life” sərgisi London, Paris, Berlin, Moskva və Tbilisidə nümayişdən sonra Bakıya, Heydər Əliyev Mərkəzinə gətirilib. Sərgi ətraf mühit problemlərinə, təbiətin qorunmasına diqqət çəkmək və incəsənətin bu sahədə rolu barədə ictimaiyyəti maarifləndirmək məqsədi daşıyır. Ekspozisiyada 200-dən çox əsər təqdim olunur.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov və Seyran Cavadov Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşova atası

**AZAY QARAŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ombudsman Elmira Süleymanova Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşova atası

**AZAY QARAŞOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universitetinin rektorluğu İdman klubunun müdiri Akif Atakişiyevə oğlu

**AYDIN ATAKİŞİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ali Məhkəmənin hakimi Vəfaddin İbayev və qardaşı Oqtay İbayev Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşova atası

**AZAY QARAŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşova atası

**AZAY QARAŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Azərbaycan Respublikası Kənd Təsərrüfatı nazirinin müavini İlham Quliyevə anası

**ZİNYƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qubadlıdan Malik İsaqov Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşova atası

**AZAY QARAŞOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Elçin, Namid və Zakir Quliyevlər Azərbaycan Respublikası Kənd Təsərrüfatı nazirinin müavini İlham Quliyevə anası

**ZİNYƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin aparat rəhbəri Hidayət Abdullayevə atası

**KAVİZ ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Aqrarkredit” Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşova atası

**AZAY QARAŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Aqrarkredit” Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Mərkəzi Bankın sədrinin birinci müavini Alim Quliyevə əzizi

**LƏTİF ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi “Azərbaycan İnvestiya Şirkəti” ASC-nin icraçı direktoru Allahverdi Paşayevə əzizi

**ƏBÜLFƏT BAXŞƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə Avtomobil Zavodu İstehsalat Birliyinin Müşahidə Şurasının sədri, Milli Məclisin deputatı Xanlar Fətiyev müəssisənin sabiq direktoru

**KAVİZ ABDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Gəncə Avtomobil Zavodu İstehsalat Birliyinin direktoru Kamran Nəzərov və birliyin kollektivi müəssisənin sabiq direktoru

**KAVİZ ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyevaya atası

**ŞİRMƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı İqbal Məmmədova atası

**NƏRİMAN MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşova atası

**AZAY QARAŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8122
Sifariş 2159
Qiyməti 40 qəpik